

Milli azadlıqdan
şirin nemət yoxdur!





# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

18 noyabr
2025-ci il,
çərşənbə axşamı
№ 209 (7036)
Qiymәti
60 qəpik


# Tarixi qərar!




## Xəzərin Şərqini Qərbinə birləşdirən güc: yeni Avrasiya birliyi formatı...



Bax səh. 4

## Bakı bu gün həm də beynəlxalq rəqəmsal əməkdaşlıq məkanıdır

Bax səh. 2

## Azərbaycan - Özbəkistan: Dövlətlərarası münasibətlər möhkəm təməl üzərində uğurla inkişaf edir

Azərbaycanla Özbəkistan arasında əlaqələr getdikcə dərinləşir. Hazırda yüksək səviyyədə olan bu əlaqələr tarixi ənənələrdən, oxşar milli-mənəvi dəyərlərdən, geniş humanitar bağlardan və müasir dövrün çağırışlarından qaynaqlanır. Hər iki dövlət qarşılıqlı maraqlara əsaslanan münasibətlərin daha da genişlənməsinə güclü siyasi iradə göstərir, eyni zamanda, bunu cəmiyyətlər də istəyirlər. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak etmək üçün Özbəkistanda növbəti dəfə səfərdə olub.

Daşkənddə Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə təkbətək görüşü olub.

Görüşdə Azərbaycanla Özbəkistan arasında müttəfiqliyə və strateji tərəfdaşlığa əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi bildirilib.

Prezident İlham Əliyevin Özbəkistana, Prezident Şavkat Mirziyoyevin isə ölkəmizə mütəmadi səfərlərinin əlaqələrimizin inkişafında rolu vurğulanıb.

Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın son dövrlərdə daha da genişləndiyi məmnunluqla qeyd edilərək, bu xüsusda dövlətimizin başçısının Mərkəzi Asiya Dövlət Başçılarının...

Bax səh. 2-3




Bax səh. 5

## Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə...

## Xalqımızın xaricdəki nəfəsi!

Bax səh. 5

## Moskvanın "təkzib" manevri...

Bax səh. 6

## Dayanıqlı inkişaf göstəriciləri

2025-ci ilin yanvar-oktyabr aylarında ölkəmizdə 106 milyard 435,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,1 faiz azalsa da, qeyri neft-qaz sektorunda isə 3,1 faiz artıb. Belə ki, ÜDM istehsalının 34 faizi sənaye, 10,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 6,5 faizi tikinti, 2,7 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrinin, 20,9 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,7 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 10 min 392,6 manata bərabər olub.

ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi qeyri-neft sektorunun payına düşüb. Belə ki, 106 milyard manatlıq əlavə dəyərin təxminən 70 faizi qeyri-neft mənbələrinin üzərində cəmləşib ki, bu da nominal ifadədə 70 milyard manata yaxın milli məhsul deməkdir. ÜDM-də əsas sahələrdən biri olan sənaye sektorunda məhsul həcmi 52, 6 milyard manatı üstələyib. Qeyri neft-qaz sənayesində əlavə dəyər 4,9 faiz artıb. Bu amil də sənayeləşmənin əsas strukturlarının qeyri-neft sütunları üzərində inkişaf etdiyini təsdiqləyir.

Xüsusilə də ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərinin artmasında sənaye parklarının rolunun artması...

Bax səh. 6



## Yaponiya Çinə diplomat göndərir

Bax səh. 7




## Rusiya yeni sanksiyaların hədəfində...

Bax səh. 7

# Bakı bu gün həm də beynəlxalq rəqəmsal əməkdaşlıq məkanıdır

## Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının iştirakçılarına

**Hörmətli tədbir iştirakçıları!**

Sizi Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransında Bakı şəhərində səmimi-qəlbdən salamlayıram.

Telekommunikasiya sahəsində mötəbər beynəlxalq tədbir - Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə olaraq Azərbaycanda keçirilməsi əlamətdar hadisədir. Bu, Azərbaycan ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında mövcud olan uzunmüddətli səmərəli əməkdaşlıq ənənələrinin təzahürü, eyni zamanda ölkəmizin rəqəmsal inkişaf sahəsində qlobal müstəvidə aparıcı mövqeyə malik olmasının bariz göstəricisidir.

Telekommunikasiya və informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən tənzimləyici orqanları, beynəlxalq təşkilatları və bütün maraqlı tərəfləri bir araya gətirən bu konfransın məqsədi strategiya və tənzimləmə mexanizmlərini təkmilləşdirmək, inklüziv və dayanıqlı rəqəmsal transformasiyanın təşviqi istiqamətində müzakirələr aparmaq, rəqəmsal əlçatanlığı artırmaqdır.

Dünya artıq yeni bir rəqəmsal dövrə qədəm qoymuşdur. Hazırda texnoloji inkişaf və rəqəmsallaşma ölkənin inkişaf səviyyəsini şərtləndirən, bəşəriyyətin gələcəyini müəyyənləşdirən əsas amillərdən birinə çevrilmişdir. Təəssüf ki, rəqəmsal dünyanın bu qədər inkişaf etdiyi bir dövrdə iki milyarddan çox insan hələ də internetə çıxış imkanından məhrumdur. Müasir dövrdə heç bir ölkə və heç bir insan rəqəmsal gələcəkdən kənarda qalmamalıdır. Bunun təmin olunması bizim ortaq məsuliyyətimizdir.

Kommunikasiya texnologiyaları sahəsi Azərbaycanın qeyri-neft iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmiş, son dörd ildə sabit artım ritmi qazanmışdır. Bütün bunlar süni intellektin inkişaf etdirilməsi, kiberhücumların qarşısının alınması və rəqəmsal infrastrukturun genişləndirilməsi sahəsində görülən ardıcıl tədbirlərlə müşayiət olunur.

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik strategiyası Azərbaycanın milli təhlükəsizlik arxitekturasının əsasını təşkil edir. Bundan əlavə “Azərbaycan 2030: Sosial-iqtisadi inkişaf üzrə milli prioritetlər” sənədinə uyğun olaraq rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi ölkəmizin əsas strateji istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Biz bu istiqamətdə dövlət və özəl sektorları arasında əməkdaşlığa xüsusi önəm veririk.

Azərbaycan bu gün 100 faizlik genişzolaqlı internet əhatə dairəsi ilə regionda lider mövqe tutur. Rəqəmsal şəxsiyyət sahəsində də ölkəmiz qabaqcıl ölkələr sırasındadır. “SİMA” adlı biometrik rəqəmsal imza sistemi artıq 3,6 milyon istifadəçi tərəfindən qəbul edilmiş, 80-dən çox dövlət informasiya sisteminə inteqrasiya olunmuşdur. Təsadüfi deyil ki, Azərbaycan BMT-nin “Elektron Hökumətin İnkişafı İndeksi”nin ən yüksək kateqoriyası qrupuna daxil olmuşdur. Məqsədimiz növbəti beş il ərzində bu indeksdə ilk 40 ölkə sırasında yer almaqdır.



Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransına ev sahibliyi edən Bakı bu gün yalnız qlobal telekommunikasiya mərkəzi deyil, həm də beynəlxalq rəqəmsal əməkdaşlıq məkanıdır. Konfrans çərçivəsində eyni zamanda Bakı şəhərində BTİ-nin Regional Akselerasiya Mərkəzinin açılması planlaşdırılır. BTİ-nin qlobal innovasiya şəbəkəsinin bir hissəsi olacaq bu Mərkəz region üçün innovasiya və sahibkarlıq sahəsində aparıcı platformaya çevriləcəkdir.

Əminəm ki, konfrans çərçivəsində aparılacaq müzakirələr, qəbul olunacaq qərarlar, yaradılacaq tərəfdaşlıqlar inklüziv, təhlükəsiz və dayanıqlı rəqəmsal gələcəyin qurulmasına xidmət edəcək, milyardlarla insanın həyatına öz təsirini göstərəcəkdir.

Sizə bir daha ən xoş arzularımı yetirir, məhsuldar müzakirələr, tədbirin işinə uğurlar arzulayıram.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 noyabr 2025-ci il**

# Azərbaycan - Özbəkistan:

## Dövlətlərarası münasibətlər möhkəm təməl üzərində uğurla inkişaf edir

Azərbaycanla Özbəkistan arasında əlaqələr getdikcə dərinləşir. Hazırda yüksək səviyyədə olan bu əlaqələr tarixi ənənələrdən, oxşar milli-mənəvi dəyərlərdən, geniş humanitar bağlardan və müasir dövrün çağırışlarından qaynaqlanır. Hər iki dövlət qarşılıqlı maraqlara əsaslanan münasibətlərin daha da genişlənməsinə güclü siyasi iradə göstərir, eyni zamanda, bunu cəmiyyətlər də istəyirlər. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak etmək üçün Özbəkistanda növbəti dəfə səfərdə olub.

### Dövlətimizin başçısının Özbəkistan Prezidenti ilə təkbətək görüşü

Daşkənddə Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə təkbətək görüşü olub.

Görüşdə Azərbaycanla Özbəkistan arasında müttəfiqliyə və strateji tərəfdaşlığa əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi bildirilib.

Prezident İlham Əliyevin Özbəkistana, Prezident Şavkat Mirziyoyevin isə ölkəmizə mütəmadi səfərlərinin əlaqələrimizin inkişafında rolu vurğulanıb.

Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın son dövrlərdə daha da genişləndiyi məmnunluqla qeyd edilərək, bu xüsusda dövlətimizin başçısının Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirakının önəminə toxunulub.

Söhbət zamanı dövlət başçıları ölkələrimiz arasında əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.





### “Gələcəyin İrsi” Beynəlxalq Mükafatının təntənəli təqdimat mərasimi

Daşkənddə “Gələcəyin İrsi” Beynəlxalq Mükafatının təntənəli təqdimat mərasimi keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Qeyd edək ki, Azərbaycandan bu mükafata Xalq artisti Alim Qasımov layiq görülüb.

### Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanışlıq

Prezident İlham Əliyev Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olub.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Qərarı ilə təsis edilən İslam Sivilizasiyası Mərkəzinin təməli 2018-ci ildə qoyulub. Layihənin həyata keçirilməsində yüzlərlə alim, ekspert, həmçinin dini və ictimai xadim iştirak edib. Səmərqənd şəhərinin qədim memarlıq abidələri üslubunda hazırlanmış mərkəz 10 hektardan çox ərazini əhatə edir. Binada 65 metr hündürlüyündə günbəz inşa olunub. Mərkəzə tədqiqat, nadir əlyazmaların milli reyestrinin aparılması, əlyazmalar fondu, kitabxana və arxivlər, nəşriyyat şöbələri və digər şöbələr daxildir.

Buradakı sərgi qalereyasında müxtəlif tarixi dövrlərə aid əşyalar və əsərlər təqdim olunur, əcdadların yaradıcılıq potensialı müasir texnologiyalar və rəqəmsal cihazların köməyi ilə nümayiş etdirilir.

Mərkəzin binasında, həmçinin 100 min əlyazma və bir milyondan çox kitab daxil olmaqla, nəhəng kitabxana və İslam Sivilizasiyası Mərkəzinin elmi şöbəsi, beynəlxalq təşkilatların ofisləri yerləşir. Mərkəzin muzey ekspozisiyası “İslamdan əvvəl sivilizasiyalar”, “Birinci İntibah dövrü”, “İkinci İntibah dövrü”, “XX əsrdə Özbəkistan”, “Yeni Özbəkistan - Üçüncü İntibahın əsası” və “Müqəddəs Quran” adlı zallardan ibarətdir.

Ekspozisiyanın mərkəzində yerləşən “Müqəddəs Quran” zalında müsəlman dünyasının mənəvi incisi - “Osman Quranı” saxlanılır. Zalda Samanilər, Qaraxanlılar, Xarəzmşahlar, Teymurilər və digər sülalələr dövründə yazılmış “Quran”ın əlyazma nüsxələri, həmçinin onların özbək dilinə tərcümələri təqdim olunur. Mərkəzdə dini-maarifləndirici və innovativ media layihələri reallaşdırılıb.

Holoqrafiya, qurğular və proyeksiya texnologiyalarının köməyi ilə “Zaman divarı” nəhəng multimedia panelində müxtəlif dövrlərin ən mühüm tarixi mərhələləri, böyük kəşflər və görkəmli şəxsiyyətlər barədə məlumat verilir. Bu Mərkəz UNESCO və ICESCO da daxil olmaqla, bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri qurub.

### Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü

Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü keçirilib.

Görüşdə çıxış edən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev qardaş xalqlar üçün tarixi bir gün yaşandığını vurğulayaraq deyib: “Biz Azərbaycan Respublikasının tamhüquqlu iştirakçı qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşulmasına dair prinsipial qərarlar qəbul edirik. Biz Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpü quracağıq və vahid əməkdaşlıq məkanının formalaşmasına yol açacağıq. Bu, sözsüz ki, hər iki regionun strateji qarşılıqlı əlaqəsini və dayanıqlılığını gücləndirəcək. Bu vacib qərarı qəbul etdiklərinə görə bütün həmkarlarıma səmimi-qəlbdən təşəkkürümü bildirmək və Məşvərət görüşlərinə tamhüquqlu iştirakçı qismində qoşulması münasibətilə İlham Heydər oğlunu təbrik etmək istəyirəm”.

Şavkat Mirziyoyev bildirib ki, həmrəyliyin gücləndirilməsi və birgə inkişafa can atmaq Mərkəzi Asiyanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə və qlobal rolunun artırılmasına töhfə verir. “Mərkəzi Asiya +” formatlarının qarşılıqlı fəaliyyəti gücləndirilib. Region nüfuzlu beynəlxalq platformalarda vahid mövqedən çıxış edir. Şübhəsiz ki, Azərbaycanın bizim formata qoşulması ilə regionumuzun qlobal miqyasda səsi daha əhəmiyyətli olacaq”, - deyə Özbəkistan Prezidenti vurğulayıb.

“Bu gün Azərbaycanın tamhüquqlu iştirakçı qismində bizim formata qoşulmasına dair tarixi qərar qəbul etdik”. Bu fikri isə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev söyləyib. O, Azərbaycanın bu yeni formatda regional əməkdaşlığın möhkəmləndirilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.






Qırğız Respublikasının Prezidenti Sadır Japarov da ölkəsinin Azərbaycanın tamhüquqlu üzv qismində Məşvərət görüşləri formatına qoşulması təşəbbüsünü dəstəklədiyini vurğulayaraq qeyd edib: “Qardaş Azərbaycanın iştirakı ilə formatımızın genişləndirilməsi Mərkəzi Asiyanın qarşısında xüsusilə beynəlxalq tranzit, logistika və energetika sahələrində yeni imkanlar, geniş əməkdaşlıq üfüqləri açacaq. Bu gün əminliklə deyə bilərik ki, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinin formatı baş tutub. Bu format öz səmərəliliyini sübut edib, təkcə regionumuzda mövcud problemlərin müzakirə olunduğu deyil, həm də yeni təşəbbüslərin və təkliflərin fəal şəkildə irəli sürüldüyü real, özünəməxsus yeganə platformaya çevrilib”.

“Bu gün regionun yeni nəqliyyat arteriyasının meydana çıxmasının şahidi oluruq”, - deyən Sadır Japarov əlavə edib ki, strateji cəhətdən mühüm Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun tikintisi logistikanı birləşdirməklə yanaşı, həm də formatını genişləndirəcək, ölkələrimizə Asiya və Avropanın çox böyük bazarlarına ən qısa yolu açacaq. Bu kontekstdə Zəngəzur dəhlizinin tikintisi layihəsi Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun məntiqi və strateji davamı kimi görünür.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon da ölkəmizi Məşvərət görüşlərinə qoşulması münasibətilə təbrik edərək deyib: “Hörmətli İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinə qoşulması münasibətilə təbrik edirəm. Sevindirici haldır ki, məkanımız beynəlxalq və regional proseslərin mühüm iştirakçısının timsalında öz əhəmiyyətini inamla artırır. Bu, balanslaşdırılıb və region ölkələrinin artan maraqlarının inkişafına səyləri nümayiş etdirir”.

Tədbirdə çıxış edən Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov dövlətimizin başçısına Azərbaycanın tamhüquqlu iştirakçı qismində Məşvərət görüşlərinə qoşulması münasibətilə təbriklərini çatdırıb.

Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib.

**davamı 3-cü səhifədə**

# Azərbaycan - Özbəkistan:
## Dövlətlərarası münasibətlər möhkəm təməl üzərində uğurla inkişaf edir

əvvəli 2-ci səhifədə

### Liderlərin müntəzəm hal alan qarşılıqlı səfərləri

Hazırda dünyada müşahidə edilən geosiyasi reallıqlar, xüsusilə də qütbləşmə meyllərinin artması ciddi narahatlıq doğurur.  Belə bir şəraitdə hər bir dövlət üçün təbii müttəfiqlərinin sayını artırması zərurət qismində çıxış edir. Bu kontekstdə son illərdə Azərbaycanla Mərkəzi Asiyanın önəmli dövlətlərindən olan Özbəkistan arasında münasibətlərin dərinləşməsi məmnunluq doğurur. Respublikamızın bu ölkə ilə əlaqələri həm ikitərəfli, həm də çoxtərəfli platformalarda, o cümlədən də Türk Dövlətləri Təşkilatında intensiv şəkildə inkişaf edir. Deyə bilərik ki, Azərbaycanın və Özbəkistanın siyasi dialoqu, iqtisadi və humanitar sahələrdə əməkdaşlığı daha yüksək səviyyəyə qaldırmalarının qarşısında hansısa bir maneə yoxdur. Prezident İlham Əliyev bu günlərdə  Özbəkistanın Milli İnformasiya Agentliyinə verdiyi müsahibədə Özbəkistanı Azərbaycan üçün qardaş ölkə və etibarlı müttəfiq kimi səciyyələndirib. Dövlətimizin başçısı vurğulayıb ki, bizi ortaq köklər, mənəvi dəyərlər, dil, etnik yaxınlıq, zəngin tarixi və mədəni irs birləşdirir. Əsrlər boyu qardaş xalqlarımız bir-birinə dərin rəğbət və hörmət bəsləyiblər. Sevindirici haldır ki, dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində uğurla inkişaf edir.

Əlaqələrin getdikcə daha da möhkəmlənməsində liderlərin dostluq münasibətlərinin və onların  mütəmadi hal alan qarşılıqlı səfərlərinin önəmini xüsusi qeyd edə bilərik. Budəfəki səfərədək son bir il yarım ərzində beş yüksəksəviyyəli səfər baş tutub. Bütün bunlar münasibətlərin yüksək dinamikasını əyani şəkildə göstərir. Keçən ilin avqustunda Prezident İlham Əliyevin  Özbəkistana dövlət səfəri baş tutub, bu ilin iyulunda isə Özbəkistan Prezidenti Azərbaycana dövlət səfərinə gəlib. Bu tarixi səfərlər zamanı onlarla mühüm sənəd, o cümlədən Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə, Müttəfiqlik münasibətləri haqqında Müqavilə, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol Xəritəsi" və digər sənədlər imzalanıb. Prezident İlham Əliyevin vurğuladığı kimi, bütün bu qarşılıqlı səfərlər Azərbaycan-Özbəkistan münasibətlərinin həm ikitərəfli əsasda, həm də Mərkəzi Asiya və Xəzər regionu da daxil olmaqla, vahid coğrafi məkanda yeni tərəfdaşlıq imkanlarının reallaşdırılması baxımından bütün sahələrdə möhkəmləndirilməsinə mühüm əhəmiyyətli təkan verib.

İki ölkənin münasibətlərinin inkişaf strategiyasının müəyyənləşdirilməsində 2023-cü ilin avqustunda təsis edilmiş Ali Dövlətlərarası Şura da xüsusi rol oynayır.  Şura artıq qarşılıqlı dövlət səfərləri çərçivəsində 2024-cü il avqustun 22-də Daşkənddə və 2025-ci il iyulun 2-də Bakıda iki iclas keçirib.










Liderlərin qətiyyətli siyasi iradələri sayəsində münasibətləri strateji müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycanla Özbəkistan arasında əlaqələr çoxvektorlu olması ilə səciyyələnir. Qardaş ölkə Azərbaycanın ərazi bütövlüyünü dəyişməz olaraq dəstəkləyib. Özbəkistan həmçinin postmüharibə dönəmində Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə həyata keçirdiyi bərpaquruculuq işlərinə dəstək verən dost ölkələr sırasında yer alır. Özbəkistan Prezidentinin təşəbbüsü əsasında Füzulidə böyük özbək alimi Mirzə Uluqbəyin adını daşıyan və hazırda təxminən 600 şagirdin təhsil aldığı məktəbin tikintisi həyata keçirilib.

Ölkələrimiz arasında əməkdaşlıq təkcə ikitərəfli formatda deyil, həm də beynəlxalq platformalarda uğurla inkişaf edir. Belə ki, Azərbaycan və Özbəkistan Türk Dövlətləri Təşkilatının fəal üzvləridir və türk birliyinin möhkəmləndirilməsinə mühüm töhfələr verirlər. Bundan əlavə, iki ölkə arasında münasibətlər BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, AQEM və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf edir.

Siyasi dialoqun yüksək səviyyəsinə adekvat olaraq iqtisadi-ticari əməkdaşlığın dinamikası da davamlı olaraq artır. Hər iki tərəf qar-

### Müxtəlif istiqamətləri əhatə edən sıx əməkdaşlıq

şılıqlı əməkdaşlığı genişləndirmək üçün əhəmiyyətli səylər göstərir, yeni layihələr irəli sürür və birgə təşəbbüslərin həyata keçirilməsinə xüsusi əhəmiyyət verir. Bu gün Azərbaycanda təxminən 120 Özbəkistan investisiyalı kommersiya təşkilatı qeydiyyatdan keçib və iqtisadiyyatın müxtəlif istiqamətlərində - sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və xidmət sahələrində uğurla fəaliyyət göstərir. Qarşılıqlı ticarət sürətli templə inkişaf edir. Belə ki, 2024-cü ildə əmtəə dövriyyəsi 252 milyon ABŞ dolları təşkil edib və 2025-ci ilin yanvar-sentyabr aylarında bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 87,5 faiz artaraq 319 milyon ABŞ dollarına çatıb.

Sərmayələr sahəsində əməkdaşlıq da möhkəmlənməyə davam edir. 2023-cü ildə həm ölkələrimizin daxilində, həm də üçüncü ölkələrdə sərmayə qoyuluşunu nəzərdə tutan ümumi kapitalı 500 milyon ABŞ dolları olan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti yaradılıb.

### Nəqliyyat və enerji əməkdaşlığının böyük perspektivi var

Ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərindən biri şaxələndirilmiş nəqliyyat və logistika infrastrukturunun inkişafı, tranzit imkanlarının genişləndirilməsidir. Bu sahədə ölkələrimizin Orta Dəhliz Beynəlxalq Nəqliyyat Marşrutunda iştirakı xüsusi əhəmiyyətə malikdir və onun çərçivəsində Azərbaycan Özbəkistan və Mərkəzi Asiya dövlətləri üçün mühüm tranzit ölkə qismində çıxış edir. Son illərdə Orta Dəhliz vasitəsilə ixrac imkanlarının və daşımaların artması xüsusi strateji əhəmiyyətə malikdir. 2024-cü ildə ölkələrimiz arasında tranzit daşımaların həcmi 2023-cü illə müqayisədə 18 faizdən çox artaraq 1,3 milyon tonu keçib. 2025-ci ilin ilk doqquz ayında bu rəqəm təxminən bir milyon tona çatıb ki, bu da nəqliyyat mübadilələrində dinamik artımı nümayiş etdirir.

Böyük həcmlərdə investisiya qoyuluşu hesabına yaradılan müasir nəqliyyat infrastrukturu, o cümlədən ticarət donanması, yaxın illərdə gücü 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və ölkənin doqquz beynəlxalq hava limanı Azərbaycanın qlobal nəqliyyat və logistika qovşağı kimi rolunu gücləndirən amillərdir. Bundan əlavə, Zəngəzur Dəhlizinin (Tramp marşrutu) açılması bütün region dövlətlərinə, o cümlədən də dost Özbəkistana böyük fayda gətirəcək.

Enerji əməkdaşlığının da  böyük perspektivi var. Belə ki, energetika sektorunda əməkdaşlıq və "yaşıl enerji"nin inkişafı da prioritet istiqamət olaraq qalır. SOCAR Özbəkistana Azərbaycanın neft məhsullarını və neftkimya məhsullarını ixrac edir. 2016-cı ildən bəri "OZLITINEFTGAZ" İnstitutunun və "SOCAR NIPI Neftegaz"ın bazasında yaradılan "Neftegaztexnologiya" birgə müəssisəsi uğurla fəaliyyət göstərir. 2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin inteqrasiyasına və bərpaolunan enerji mənbələrinin təşviqinə yönəlmiş bir sıra strateji sazişlər, memorandumlar imzalayıblar ki, bu da regionun davamlı inkişafı və enerji əməkdaşlığını gücləndirmək üçün yeni perspektivlər açır.

*Mübariz ABDULLAYEV*

# Tarixi qərar!

**Xəzərin Şərqini Qərbinə birləşdirən güc: yeni Avrasiya birliyi formatı...**

## Bakı qitələr arasında aparıcı siyasi - iqtisadi vektor rolunda



СЕДЬМАЯ КОНСУЛЬТАТИВНАЯ ВСТРЕЧА
ГЛАВ ГОСУДАРСТВ ЦЕНТРАЛЬНОЙ АЗИИ

РЕШЕНИЕ

16 ноября 2025 года №005 город Ташкент

О полноправном участии Азербайджанской Республики в Консультативной встрече глав государств Центральной Азии

1. Рассмотрев обращение азербайджанской стороны, принять Азербайджанскую Республику в качестве полноправного участника Консультативной встречи глав государств Центральной Азии.

2. Поручить Совещанию министров иностранных дел государств Центральной Азии привести в соответствие регламентирующие документы.

Президент Республики Казахстан

Президент Кыргызской Республики

Президент Республики Таджикистан

Президент Туркменистана

Президент Республики Узбекистан

## Mərkəzi Asiya+Azərbaycan: regional nizamın arxitekturası yenidən formalaşdırılır

Azərbaycan son beş ildə yaratdığı yeni reallıqlar fonunda tək Cənubi Qafqazda deyil, bütövlükdə, Avrasiya məkanında siyasi, iqtisadi və geostrateji nizamı dəyişdirən əsas aktorlardan birinə çevrilib. Rəsmi Bakının apardığı çoxvektorlu siyasət, enerji və nəqliyyat diplomatiyası, regional platformaların qurucusu kimi oynadığı rol geniş bir coğrafiyada yeni situasiya formalaşdırıb. Bu gün Bakı müstəqil strateji xəttə sahib dövlət olmaşqla yanaşı, həm də Şərq-Qərb inteqrasiyasının mərkəzi sütunudur - başqa sözlə, Xəzərin iki sahili arasında zaman-zaman mövcud olan siyasi əlaqələr, dialoq bu gün tamamilə yeni inkişaf məcrasına keçib və qarşılıqlı fəaliyyətin səviyyəsi tarixi maksimum həddə çatıb. Bu və digər komponentlər isə bütövlükdə, Mərkəzi Asiya və Azərbaycanın artıq bir çox aspektlərdə vahid orqanizm kimi çıxış etməsini şərtləndirir. Regionlararası proseslərin koordinasiyası, iqtisadi və investisiya layihələrinin uzlaşdırılması, enerji və nəqliyyat strategiyalarının sinxronlaşdırılması Azərbaycan - Mərkəzi Asiya əlaqələrini yeni bir müstəviyə daşıyır. Mərkəzi Asiya dövlətlərinin Azərbaycanla əməkdaşlığı yüksək səviyyədə qəbul etməsi və bu inteqrasiya formatını rəsmən dəstəkləməsi isə yaranan mənzərəni tam təsdiqləyir.

Artıq Azərbaycan yalnız Mərkəzi Asiya ilə əməkdaşlıq edən tərəfdaş deyil - həmin formatın tamhüquqlu üzvü, regional qərarların formalaşmasında aparıcı iştirakçı, yeni Avrasiya nizamının arxitekturasını quran əsas ölkələrdən biridir. Artıq bütün səviyyələrdə: dövlət və hökumət başçıları, nazirliklər, dövlət qurumları, ictimai təşkilatlar, ekspert və analitik strukturlar - Azərbaycan Mərkəzi Asiya mexanizmlərinin ayrılmaz tərkib hissəsinə çevrilir. Bu, həm Azərbaycanın strateji yüksəlişinin nəticəsi, həm də Mərkəzi Asiyanın ölkəmizə verdiyi geosiyasi dəyərin göstəricisidir.

## Vahid regional format: Mərkəzi Asiya dövlətlərinin siyasi dəstəyi

Azərbaycanın Mərkəzi Asiya ilə vahid regional formatın tərkibinə daxil olması təkcə Bakının öz təşəbbüsü deyil, həm də region dövlətlərinin bu prosesə yüksək siyasi dəstəyinin nəticəsidir. Mərkəzi Asiya ölkələri Azərbaycanın bu platformaya qatılmasını strateji seçim kimi qəbul edir və bunu açıq şəkildə ifadə edirlər. Çünki Azərbaycan yeni dünyanın iqtisadi və nəqliyyat xəritəsində körpü missiyasını uğurla icra edən, Şərqdən Qərbə uzanan bütün əsas enerji və kommunikasiya arteriyalarının üzərində yerləşən əsas dövlətdir. Bu reallıq Mərkəzi Asiya ölkələrinin inkişaf konsepsiyasında Azərbaycanı zəruri tərəfdaş edir. Təsadüfi deyil ki, noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxış edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev qardaş xalqlar üçün tarixi bir gün yaşandığını vurğulayaraq bildirib ki, biz Azərbaycan Respublikasının tamhüquqlu iştirakçı qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşulmasına dair prinsipial qərarlar qəbul edirik: "Biz Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpü quracağıq və vahid əməkdaşlıq məkanının formalaşmasına yol açacağıq. Bu, sözsüz ki, hər iki regionun strateji qarşılıqlı əlaqəsini və dayanıqlılığını gücləndirəcək".

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev də çıxışında Azərbaycanın bu yeni formatda regional əməkdaşlığın möhkəmləndirilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib. Qırğız Respublikasının Prezidenti Sadır Japarov da ölkəsinin Azərbaycanın tamhüquqlu üzv qismində Məşvərət görüşləri formatına qoşulması təşəbbüsünü dəstəklədiyini vurğulayaraq deyib ki, qardaş Azərbaycanın iştirakı ilə formatımızın genişləndirilməsi Mərkəzi Asiyanın qarşısında xüsusilə beynəlxalq tranzit, logistika və energetika sahələrində yeni imkanlar, geniş əməkdaşlıq üfüqləri açacaq. Tacikistan Prezidenti Emoməli Rəhmon da ölkəmizi Məşvərət görüşlərinə qoşulması münasibətilə təbrik edib. Eləcə də Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov dövlətimizin başçısına Azərbaycanın tamhüquqlu iştirakçı qismində Məşvərət görüşlərinə qoşulması münasibətilə təbriklərini çatdırıb.

Mərkəzi Asiya dövlətləri Azərbaycanla əməkdaşlıq modelini əsaslı səbəblərə görə mühüm hesab edir:

- Azərbaycan sabit, proqnozlaşdırıla bilən və uzunmüddətli regional siyasəti ilə tanınır;
- Azərbaycan həm türk dünyasının inteqrasiyasında aparıcı rola malikdir, həm də eyni zamanda Avropa və Qərb bazarlarına çıxış imkanlarını açan ölkədir;
- Azərbaycan yeni nizamın aparıcı aktorudur;
- Azərbaycan həm regional, həm də qlobal miqyasda sabitləşdirici faktor kimi özünü təsdiqləyib.

Mərkəzi Asiya dövlətləri üçün Azərbaycan həm Şərqə, həm də Qərbə, həm də Qlobal Cənuba açılan qapıdır. Bu gün Mərkəzi Asiyada Azərbaycan faktoru ikiqat dəyər daşıyır: həm iqtisadi, həm siyasi. Bakı həm enerji təhlükəsizliyinin təmin edilməsində, həm nəqliyyat dəhlizlərinin şaxələnməsində, həm də regional sabitliyin qorunmasında real rol oynayır. Mərkəzi Asiya dövlətlərinin Azərbaycanı öz formatlarına tamhüquqlu üzv kimi görmək istəyi həm də bu funksional dəyərdən irəli gəlir.





## Əlaqələr yeni müstəvidə: müttəfiqlik sazişləri və intensiv lider görüşləri

Son illərdə Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında əlaqələr həm siyasi, həm iqtisadi, həm də humanitar sahələrdə misilsiz dərəcədə intensivləşib. Dövlət başçılarının qarşılıqlı səfərlərinin artması, imzalanan strateji tərəfdaşlıq və müttəfiqlik sənədləri, birgə iqtisadi komissiyaların işinin aktivləşdirilməsi bu inteqrasiyanın hansı miqyas aldığını aydın şəkildə göstərir. Azərbaycan Prezidentinin Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistana ardıcıl səfərləri, həmin ölkələrin liderlərinin Bakıya səfərləri yeni siyasi reallığın formalaşdığını təsdiqləyən ən güclü faktlardır. Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxış edən Prezident İlham Əliyev bildirib ki, son illər yüksəksəviyyəli qarşılıqlı səfərlər müntəzəm xarakter alıb: "Son üç ildə mən Mərkəzi Asiya ölkələrində 14 dəfə səfərdə olmuşam. Bu müddət ərzində həmkarlarım ölkəmizə 23 dəfə səfər ediblər. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalayıb. Mütəmadi olaraq keçirilən mədəniyyət günləri, sərgilər, konsertlər xalqlarımızı daha da yaxınlaşdırır, bizim yaxınlığımızı, dostluğumuza verdiyimiz dəyəri nümayiş etdirir. Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur".

Bəli, reallaşan qarşılıqlı səfərlər yalnız diplomatik jest deyil - bu səfərlərin hər birində konkret layihələr imzalanır, sərmayə paketləri hazırlanır, investisiya zonalarının açılması müzakirə edilir, nəqliyyat, sənaye, enerji və müdafiə sənayesi kimi sahələrdə dərin əməkdaşlıq mexanizmləri formalaşdırılır. Mərkəzi Asiya liderləri Azərbaycanın regiondakı rolunu yüksək qiymətləndirir və ölkəmizin həm iqtisadi gücünə, həm də diplomatik nüfuzuna xüsusi önəm verirlər.

Azərbaycan isə öz növbəsində Mərkəzi Asiya regionunu ayrı-ayrı ölkələr kimi deyil, vahid geosiyasi və geoiqtisadi məkan kimi qəbul edir. Bu yanaşma Bakı üçün strateji baxımdan çox böyük üstünlük yaradır. Çünki Azərbaycan Cənubi Qafqazda yerləşməsinə baxmayaraq, inteqrasiya səviyyəsi və qarşılıqlı fəaliyyətin miqyasına görə artıq faktiki olaraq Mərkəzi Asiyanın ayrılmaz hissəsinə çevrilib. Artıq Mərkəzi Asiya və Azərbaycan birlikdə qlobal miqyasda nüfuzu artan vahid geosiyasi blok kimi çıxış edir.

## Koordinasiyanın güclənməsi: vahid maraqlar çərçivəsində...

Azərbaycan və Mərkəzi Asiya ölkələri son illərdə beynəlxalq arenalarda da koordinasiyanı ciddi şəkildə artırıblar. Əgər əvvəllər bu əməkdaşlıq əsasən ikitərəfli dəstək çərçivəsində həyata keçirilirdisə, bu gün artıq çoxtərəfli diplomatik xətt formalaşır. 5 Mərkəzi Asiya ölkəsi və Azərbaycan BMT, ATƏT, İƏT, Qoşulmama Hərəkatı və digər təşkilatlarda bir-birinin təşəbbüslərini dəstəkləyir, vacib məsələlərdə ortaq mövqe nümayiş etdirirlər. Bu koordinasiyanın güclənməsi regionun qlobal siyasətdə çəkisini artırır.

Prezident İlham Əliyev çıxışında bildirib ki, biz müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir, bir-birimizin təşəbbüslərini dəstəkləyir, qlobal və regional problemlərin həllində ümumi yanaşmalar işləyib hazırlayırıq.

Görünən isə budur ki, sözügedən inteqrasiya yaxın illərdə Avrasiyanın siyasi xəritəsində böyük rol oynayacaq yeni güc mərkəzinin formalaşmasına gətirib çıxaracaq. Mərkəzi Asiya dövlətləri Azərbaycanın həm Qərb, həm Avropa, həm də Qlobal Cənub ilə əlaqələrində açdığı geniş imkanların fərqindədirlər və bu inteqrasiyanı öz milli maraqları üçün strateji xətt kimi görürlər. Nəticədə artıq vahid diplomatik xəttin formalaşdığı açıq şəkildə görünür.

Azərbaycan-Mərkəzi Asiya koordinasiyası həm də regional təhlükəsizliyin güclənməsinə xidmət edir. Terrorizmə qarşı mübarizə, sərhəd təhlükəsizliyi, informasiya təhlükəsizliyi sahələrində vahid yanaşma modelləri hazırlanır. Bütün bunlar Azərbaycanı regionda həm iqtisadi, həm siyasi, həm də təhlükəsizlik baxımından mərkəzi dövlətə çevirir.

## Azərbaycanın qətiyyəti ilə yaranan vahid iqtisadi məkan

Azərbaycanın Mərkəzi Asiya ilə vahid inteqrasiya formatında iştirak etməsi mühüm bir coğrafiyada yeni iqtisadi mühasibətlər sistemi yaradır. Azərbaycan bu gün həmin coğrafiyanın arasında körpü rolunu gücləndirir və Qərbin də Mərkəzi Asiyaya açılan əsas giriş nöqtəsi kimi çıxış edir. Bu, Azərbaycanın unikal geostrateji mövqeyindən və ölkəmizin həyata keçirdiyi çoxşaxəli xarici siyasət kursundan qaynaqlanır. Çünki yerləşdiyimiz bölgə də daxil olmaqla mühüm bir regionun iqtisadi gələcəyi Mərkəzi Asiya - Azərbaycan əlaqələrinby gücləndirilməsindən keçir. Azərbaycan bu prosesin açar ölkəsidir. Bakı yerləşdiyi regionun ən böyük investisiya və istehsal potensialına malik dövlətdir. Bu, Mərkəzi Asiya ilə əlaqələrin təkcə logistika yox, həm də sənaye, kənd təsərrüfatı, rəqəmsallaşma və enerji sahələrində dərinləşməsi üçün münbit şərait yaradır. Azərbaycanın mövqeyi xətt üzrə yerləşən bütün goecoğrafi ünvanların ümumi inkişaf tempinə təsir edir. Çünki ölkəmiz regionda etibarlı tərəfdaş, sabitlik mərkəzi və iqtisadi güc kimi çıxış edir. Bu, Azərbaycanın həm coğrafi, həm siyasi, həm də iqtisadi üstünlüklərindən irəli gələn strateji roludur. Bu gün Bakı həm Avrasiya enerji xəritəsinin, həm nəqliyyat dəhlizlərinin, həm də türk dünyasının inteqrasiya modelinin əsas mərkəzlərindən biridir.

## Yeni nizamın mərkəzində duran əsas dövlət

Vahid format modeli yalnız regional əməkdaşlıq modeli deyil, yeni geosiyasi tənzimlənmənin formalaşması deməkdir. Azərbaycan bu gün Mərkəzi Asiya ölkələri tərəfindən tamhüquqlu üzv kimi qəbul edilir və bütün səviyyələrdə bu formatda iştirak edir. Bu həm ölkəmizin gücünün, həm nüfuzunun, həm də diplomatik bacarığının göstəricisidir. Mərkəzi Asiya və Cənubi Qafqaz artıq Azərbaycanın fəaliyyəti nəticəsində vahid geoiqtisadi məkan kimi çıxış edir. Bu proses həm iqtisadi, həm siyasi, həm də təhlükəsizlik aspektlərində böyük üstünlüklər yaradır. Azərbaycan bu yeni nizamın mərkəzində duran əsas dövlətdir və gələcəkdə bu rol daha da güclənəcək. Bu gün formalaşan inteqrasiya modeli türk dünyasının, Avrasiyanın və qlobal siyasətin yeni mərhələsinin başlanğıcıdır. Azərbaycanın bu prosesdə liderliyi isə regional inkişafın davamlı olacağını təmin edən əsas amildir.

*Pərviz SADAYOĞLU*

# Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə...

## Azərbaycan Ümumdünya Telekommunikasiya İnkişafı Konfransına ev sahibliyi edir

Noyabrın 17-də Bakı Konqres Mərkəzində Ümumdünya Telekommunikasiya İnkişafı Konfransı (“WTDC-25”) işinə başlayıb. Beynəlxalq Telekommunikasiya İttifaqı və Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tərəfdaşlığı ilə keçirilən konfrans “İnklüziv və dayanıqlı rəqəmsal gələcək üçün universal, faydalı və əlçatan bağlantı” mövzusuna həsr olunub. 150 ölkədən 2000-dən çox nümayəndənin iştirak etdiyi “WTDC-25” konfransı kibertəhlükəsizlik, rəqəmsal inklüzivlik, informasiya və kommunikasiya texnologiyaları tətbiqləri, innovasiya, İKT üzrə statistika və indikatorlar, İKT-nin tənzimlənməsi və digər bu kimi sahələr üzrə inkişafa dair mövzuları, layihələri və proqramları nəzərdən keçirmək üçün əlverişli imkan yaradır. Həmçinin bu tədbir dünya ölkələrinin İT sektorları arasında strategiya və tənzimləmə mexanizmlərini təkmilləşdirmək, inklüziv və dayanıqlı rəqəmsal transformasiyanı təşviq etmək və rəqəmsal əlçatanlığı artırmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyev tərəfindən tədbir iştirakçılarına ünvanlanan müraciətdə də vurğulandığı kimi bu mötəbər beynəlxalq tədbirin Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə olaraq Azərbaycanda keçirilməsi mühüm və əlamətdar hadisədir. Eyni zamanda, Azərbaycan ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında mövcud olan uzunmüddətli səmərəli əməkdaşlıq ənənələrinin təzahürü, eyni zamanda, ölkəmizin rəqəmsal inkişaf sahəsində qlobal müstəvidə aparıcı mövqeyə malik olmasının bariz göstəricisi hesab edilə bilər.

### “Elektron Hökumətin İnkişafı İndeksi”ndə yüksək nəticə

Dövlət başçısı ölkəmizdə telekommunikasiya və informasiya texnologiyaları sahəsində əldə olunmuş nailiyyətlərə diqqət çəkərək informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik strategiyasının Azərbaycanın milli təhlükəsizlik arxitekturasının əsasını təşkil etdiyini bildirib. Kommunikasiya texnologiyaları sahəsi Azərbaycanın qeyri-neft iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilib, son dörd ildə sabit artım ritmi qazanılıb. Azərbaycan bu gün 100 faizlik genişzolaqlı internet əhatə dairəsi ilə regionda lider mövqe tutur. Rəqəmsal şəxsiyyət sahəsində də ölkəmiz qabaqcıl ölkələr sırasındadır. “SİMA” adlı biometrik rəqəmsal imza sistemi artıq 3,6 milyon istifadəçi tərəfindən qəbul edilib, 80-dən çox dövlət informasiya sisteminə inteqrasiya olunub. Təsadüfi deyil ki, Azərbaycan BMT-nin “Elektron Hökumətin İnkişafı İndeksi”nin ən yüksək kateqoriyası qrupuna daxil olub.

Hazırda dünyanın yeni bir rəqəmsal dövrə qədəm qoyduğunu, muşdur. Hazırda texnoloji inkişaf və rəqəmsallaşma ölkənin inkişaf səviyyəsini şərtləndirən, bəşəriyyətin gələcəyini müəyyənləşdirən əsas amillərdən birinə çevrilib. Təəssüf ki, rəqəmsal dünyanın bu qədər inkişaf etdiyi bir dövrdə iki milyarddan çox insan hələ də internetə çıxış imkanından məhrumdur. Müasir dövrdə heç bir ölkə və heç bir insan rəqəmsal gələcəkdən kənarda qalmamalıdır. Bu çağırışları nəzərə alan Azərbaycan rəqəmsal inkişafı əsas hədəflərdindən biri hesab edir. “Azərbaycan 2030: Sosial-iqtisadi inkişaf üzrə milli prioritetlər” sənədinə uyğun olaraq rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi ölkəmizin əsas strateji istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Bu çərçivəyə uyğun olaraq rəqəmsal texnologiyaların, süni intellektin inkişaf etdirilməsi, kiberhücumların qarşısının alınması və infrastrukturun genişləndirilməsi sahəsində görülən ardıcıl tədbirlərlə müşayiət olunur. Məqsəd növbəti beş il ərzində “Elektron Hökumətin İnkişafı İndeksi”nin ilk 40 ölkə sırasında yer almaqdır.







### Kibertəhlükəsizlik indeksində layiqli reytinq

Beynəlxalq Telekommunikasiya İttifaqının (İTU) ötən ilin sonlarında dərc etdiyi “Qlobal kibertəhlükəsizlik indeksi 2024” (Global Cybersecurity Index. 2024) hesabatında da Azərbaycan 93.76 xal toplamaqla öz mövqeyini yüksəldib.

194 ölkənin 20 indikator üzrə qiymətləndirilməsinin aparıldığı hesabata əsasən, son 4 ildə kibertəhlükəsizlik sahəsində dünya ölkələrinin orta reytinq göstəricisi təxminən 20 faiz yüksəlib və qlobal orta göstərici 65,7 xala çatıb. Dünya üzrə ən maksimum nəticəni, yəni mümkün maksimum 100 xaldan 99-100 balı toplayan ölkələr Türkiyə, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Cənubi Koreya, Danimarka, Finlandiya, İndoneziya, İtaliya, Misir, Mavritaniya, Qatar və Səudiyyə Ərəbistanı olub. 90-95 xal arası nəticə göstərən ölkələr arasında digər inkişaf etmiş dövlətlər, o cümlədən Azərbaycan yer alıb.

Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) baş katibi Dorin Boqdan-Martin də ölkəmizin rəqəmsal inkişaf sahəsində əldə etdiyi uğurları yüksək dəyərləndirərək bildirib ki, rəqəmsal dövlət qurucluğu sahədsində aparılan islahatlar Azərbaycanın son illərdə İT və innovasiyalar üzrə hesabatlarda mövqeyinin yüksəlməsinə səbəb olub. Ölkəmiz innovasiya fəaliyyətinin səmərəliliyinə görə, xeyli irəliləyişlər əldə edib, innovasiya resurslarında əlverişli mühit formalaşdırıb.

D. Martin qeyd edib ki, Ümumdünya Telekommunikasiya İnkişafı Konfransının Azərbaycanda keçirilməsi qlobal rəqəmsal icma üçün mühüm hadisədir. Bakı bu gün yalnız qlobal telekommunikasiya mərkəzi deyil, həm də beynəlxalq rəqəmsal əməkdaşlıq məkanıdır. Konfrans çərçivəsində eyni zamanda Bakı şəhərində BTİ-nin Regional Akselerasiya Mərkəzinin açılması planlaşdırılır. BTİ-nin qlobal innovasiya şəbəkəsinin bir hissəsi olacaq bu Mərkəz region üçün innovasiya və sahibkarlıq sahəsində aparıcı platformaya çevriləcək.

### Bakı Bəyannaməsi strateji yol xəritəsi olacaq

Telekommunikasiya İnkişaf Bürosunun direktoru Kosmas Lakison Zavazava isə bildirib ki, Azərbaycanda təmin edilən rəqəmsal ekosistem dövlətin rəqəmsal transformasiyaya keçidi, süni texnologiyalar və insan kapitalının inkişaf etdirilməsi təşəbbüslərini tam dəstəkləyir. Bəzi ölkələr süni intellekt və 6G texnologiyalarına doğru irəliləyərkən, digərləri hələ də ən sadə internet bağlantısı üçün mübarizə aparır. Azərbaycanın İKT sahəsinə xüsusi önəm verməsi isə rəqəmsal inkişaf hədəflərinə çatmağa imkan verəcək. Zavazava vurğulayıb ki, konfransın yekununda Bakı Bəyannaməsi qəbul olunacaq ki, bu sənəd qlobal rəqəmsal inkişaf üçün strateji yol xəritəsi kimi nəzərdə tutulur.




Noyabrın 28-nə qədər davam edəcək “WTDC-25” konfransı çərçivəsində aparılacaq müzakirələr, qəbul olunacaq qərarlar, yaradılacaq tərəfdaşlıqlar inklüziv, təhlükəsiz və dayanıqlı rəqəmsal gələcəyin qurulmasına xidmət edəcək, milyardlarla insanın həyatına öz təsirini göstərəcək.

Beləliklə, konfrans dünya ölkələri arasında rəqəmsal fərqliliyi aradan qaldırmaq və rəqəmsal transformasiyanı təşviq etmək məqsədilə yeni strateji hədəfləri müəyyən edəcək. MDB regionunda ilk dəfə Azərbaycanın ev sahibliyi etdiyi bu mötəbər tədbir regionda texnoloji və elmi sahələrdə, habelə rəqəmsallaşmada ölkəmizin rolunu daha da möhkəmləndirəcək və respublikamızın beynəlxalq miqyasda nüfuzunu gücləndirəcək.

***E.CƏFƏRLİ***

# Xalqımızın xaricdəki nəfəsi!

## Diaspor quruculuğu səsimizi uzaqlara daşıyan gücdür...

Azərbaycanın tərəqqisi naminə ölkədən kənarda yaşayan həmvətənlərimizin həmrəyliyində diaspor quruculuğu və lobbiçilik institutunun inkişafı vacib faktorlardandır. Harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı mədəniyyətimizi, mənəvi dəyərlərimizi qorumaq, azərbaycançılıq ideologiyasını layiqincə təbliğ və təmsil etmək üçün daim səy göstərməlidir. Ölkənin xarici siyasətində diaspor və lobbiçiliyin inkişafı, həmçinin münaqişələrin həllində də ciddi əhəmiyyətə malikdir.

Hazırda əcnəbi ölkələrdə yaşayan azərbaycanlılar müxtəlif təşkilatlar yaradır, ölkə həqiqətlərini dünyaya çatdırır və dövlətə dəstək nümayiş etdirirlər. Nailiyyətlərin, uğurların, qələbələrin, zəfərin əldə edilməsində məhz diaspor quruculuğunun, lobbiçiliyin, həmrəyliyin böyük rolu olduğuna zərrə qədər də şübhə yoxdur. Birliyin, dünya azərbaycanlılarının həmrəyliyinin xalqımız üçün, bütövlükdə Azərbaycan üçün xüsusilə önəmli olması fonunda diasporların fəaliyyətinin nə dərəcədə əhəmiyyətli olduğu artıq bəllidir. Diasporların fəaliyyətinin, lobbiçiliyin məhz milli birliyə, həmrəyliyə xidmət etməsi də bir daha təsdiq edir ki, diaspor quruculuğu və lobbiçilik olduqca vacibdir.




### Diaspor siyasətimiz yeni mərhələyə qədəm qoyub

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən millət vəkili Elman Məmmədovun sözlərinə görə, müasir dövrdə qloballaşmanın sürətlənməsi xalqlar arasında inteqrasiyanı dərinləşdirdiyi kimi, diaspor və lobbi təşkilatlarının da əhəmiyyətini artırıb: “Bu gün bir dövlətin gücü təkcə onun iqtisadi və hərbi potensialı ilə deyil, həm də xaricdə formalaşdırdığı güclü diaspor şəbəkəsi və həmin diasporun lobbiçilik fəaliyyətləri ilə ölçülür. Eyni zamanda, millətin bir amal ətrafında birləşməsi həmin dövlətin dayanıqlığını təmin edən əsas amillərdən biridir.

Tarixi faktar sübut edir ki, birliyi, həmrəyliyi təmin edən, bununla da öz xalqına qələbələr, zəfərlər, uğurlar bəxş edən şəxsiyyətlər heç zaman unudulmurlar. O, qeyd edib ki, məhz birlik və həmrəylik sayəsində öz xalqını birləşdirən, güclü, qüvvətli, qüdrətli edən sərkərdələr, dövlət başçıları rəhbərlik etdikləri ölkənin, xalqın qalib olaraq tanınmasına nail olublar: “Bəşər tarixində belə ölkə rəhbərlərinin öz ölkələri üçün hansı nailiyyətlər qazandığı barədə kifayət qədər faktlar, dəlillər var və bununla bağlı yetərincə nümunələr göstərmək olar. Amma bizim üçün ən böyük nümunə məhz Heydər Əliyevin xalqımızın birliyini, həmrəyliyini təmin etməsi ilə uğurlarımızın, nailiyyətlərimizin, qələbələrimizin əsasını qoyması idi. Prezident İlham Əliyevin birliyimizi və həmrəyliyimizi daha da möhkəmləndirərək qələbələrə, Zəfərə imza atmasını da xüsusilə qeyd etmək lazımdır.

Hazırda diasporla iş sahəsində dövlət siyasəti yeni mərhələyə qədəm qoyub. Prezident İlham Əliyev xaricdə yaşayan soydaşlarımızla əlaqələrin genişləndirilməsini xarici siyasətin əsas istiqamətlərindən biri kimi qiymətləndirir və bu sahədə sistemli və məqsədyönlü tədbirlərin həyata keçirilməsinə xüsusi önəm verir. Bu fəaliyyət nəticəsində müxtəlif ölkələrin ictimai-siyasi xadimləri, elm adamları və media nümayəndələri ilə səmərəli əməkdaşlıq qurulub. Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində mühüm nailiyyətlər əldə olunub”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi” istiqaməti üzrə hazırlanmışdır**

### Dövlətimiz diaspor təşkilatlarının işinə müdaxilə etmir...

Deputat qeyd edib ki, xaricdə yaşayan soydaşlarımız Azərbaycan xalqının ayrılmaz hissəsidir: “Onlar yaşadıqları ölkələrin layiqli vətəndaşları olmaqla yanaşı, ana vətənləri olan Azərbaycanla da sıx əlaqələr saxlayırlar. Dilimizin qorunması, mədəniyyətimizin gələcək nəsillərə ötürülməsi bu gün diasporamızda müşahidə olunan və yüksək qiymətləndirilən əsas cəhətlərdəndir. Azərbaycan dövləti diasporla əlaqələrə xüsusi önəm verir. Maraqlı məqamlardan biri də odur ki, təkcə xarici ölkələrdə yaşayan azərbaycanlılar deyil, eləcə də Azərbaycanda yaşayan qeyri millətlər də bu əlaqələrdə fəal iştirak edirlər və diaspor təşkilatlarının fəaliyyətlərinə dəstək verirlər. Dövlətimizin tövsiyəsi ondan ibarətdir ki, soydaşlarımız yaşadıqları ölkələrdə həmin cəmiyyətin dəyərlərinə və adət-ənənələrinə hörmətlə yanaşsınlar, Azərbaycan mədəniyyətini layiqincə təmsil etsinlər. Bu baxımdan Azərbaycan dövləti xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarının işinə müdaxilə etmir, onların sərbəst fəaliyyəti təmin olunur”.

Millət vəkili bildirib ki, bu sahəyə göstərilən diqqət öz əksini Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətində də tapır: “Xaricdə yaşayan gənclərin Azərbaycanda təşkil olunan yay məktəblərində iştirakı isə bu münasibətlərin səmərəli və davamlı xarakter daşıdığını sübuta yetirir. Əminəm ki, xaricdə yaşayan soydaşlarımız ana vətənlə əlaqələrini hər zaman diqqətdə saxlayacaq, Azərbaycan adının ucalığını və mədəniyyətinin zənginliyini bütün dünyaya tanıdacaqlar”.

***Yeganə***

# Dayanıqlı inkişaf göstəriciləri

## ÜDM-in həcmi 106 milyard manatı ötüb

2025-ci ilin yanvar-oktyabr aylarında ölkəmizdə 106 milyard 435,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,1 faiz azalsa da, qeyri neft-qaz sektorunda isə 3,1 faiz artıb. Belə ki, ÜDM istehsalının 34 faizi sənaye, 10,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 6,5 faizi tikinti, 2,7 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrinin, 20,9 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,7 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 10 min 392,6 manata bərabər olub.

## Qeyri-neft sənayesində artan əlavə dəyər

ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi qeyri-neft sektorunun payına düşüb. Belə ki, 106 milyard manatlıq əlavə dəyərin təxminən 70 faizi qeyri-neft mənbələrinin üzərində cəmləşib ki, bu da nominal ifadədə 70 milyard manata yaxın milli məhsul deməkdir. ÜDM-də əsas sahələrdən biri olan sənaye sektorunda məhsul həcmi 52,6 milyard manatı üstələyib. Qeyri neft-qaz sənayesində əlavə dəyər 4,9 faiz artıb. Bu amil də sənayeləşmənin əsas strukturlarının qeyri-neft sütunları üzərində inkişaf etdiyini təsdiqləyir.

Xüsusilə də ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərinin artmasında sənaye parklarının rolunun artması ümumi qeyri-neft sənayesinin dinamikasını artırır. Həmçinin Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkının yaradılması, azad ərazilərdəki sənaye vektorlarının, xüsusilə də Ağdam Sənaye Parkındakı 5-dən artıq müəssisənin fəaliyyətə başlaması, həmçinin "Araz Vadisi İqtisadi Zonası"nda rezidentlərin ilk istehsal mallarının tədarükünün başlanması ümumi sənaye potensialının yüksəlməsi və ixracının artmasında öz rolunu göstərməkdədir. Qeyri-neft sənayesinin inkişafı ümumilikdə, neftdənkənar mənbələrin hazırda həm də əsas əlavə dəyər formalaşdıran fiskal sahə olduğunu göstərir.

## Büdcədə qeyri-neft yığımlarının həcmi 10 milyard manatı ötüb

2025-ci ilin yanvar-oktyabr aylarında fiskal yığımların artımında da yüksək dinamika qeydə alınıb. Bu dövrdə xəzinədarlıq orqanları tərəfindən 1 milyon 283 mindən çox ödəniş tapşırığı icra edilib və dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb. Dövlət büdcəsinin gəlirləri 32,9 milyard manata yaxın olub ki, bu da on aylıq proqnozu 536,8 milyon manat və ya 1,7 faiz üstələyib. Büdcə gəlirlərində vergi daxilolmaları 14,4 milyard manat təşkil edərək proqnozdan 752,3 milyon manat və ya 5,5 faiz çox olub. Qeyri-neft-qaz sektorundan daxilolmalar 10 milyard 411,8 milyon manat olub, proqnoz 3 faiz artıq icra edilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 860,3 milyon manat və ya 9 faiz artıb.

Dövlət Neft Fondundan transfert isə 12 milyard manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib. Gömrük orqanı tərəfindən daxilolmalar 5 255,7 milyon manat təşkil edib.

Ötən 10 ayda dövlət büdcəsinin xərcləri isə 27,7 milyard manat məbləğində icra edilib.

## Sosial sığorta yığımları 12 faiz çoxalıb

2025-ci ilin yanvar-oktyabr aylarında muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 5 milyard 234,2 milyon manat təşkil edib. Bu mənbədən daxilolmalar əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 12,1 faiz və ya 563 milyon manatdan çox artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 12,7 faiz artaraq 3 milyard 503,5 milyon manata bərabər olub.

İşsizlikdən sığorta haqları üzrə daxilolmalar 2024-cü ilin eyni dövrü ilə müqayisədə 11,1 faiz artaraq 185,5 milyon manata çatıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 12,1 faiz artaraq 141,8 milyon manat olub. İcbari tibbi sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrünə nisbətən 10,5 faiz artıb və 916,2 milyon manatdan çox təşkil edib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 9,9 faiz artaraq 650 milyon manat olub.










## Əhalinin gəlirləri və orta aylıq əməkhaqqı artıb

2025-ci ilin yanvar-oktyabr aylarında əhalinin nominal gəlirlərində, bank əmanətlərində, ünvanlı sosial yardımın məbləğində, muzdlu işçilərin orta aylıq əməkhaqqında da artımlar qeydə alınıb. Əhalinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,1 faiz artaraq 73 milyard 705,9 milyon manat və ya hər nəfərə orta hesabla 7196,8 manat olub.

Ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı və maaşlarında da dinamika qeydə alınıb. Belə ki, muzdlu işçilərin sayı 1 milyon 781,4 min nəfər olub ki, onların böyük bir hissəsi (918 min nəfər) qeyri-dövlət sektorunda fəaliyyət göstərənlərdir. Muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,5 faiz artaraq 1098,1 manat təşkil edib. Muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,5 faiz artaraq 1087,7 manat təşkil edib.

İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub. Özəl müəssisələrdə çalışan işçilərin orra nomainla gəlirləri 1200-2000 manat civarında olub ki, bu da biznes sektorunda fəalllığın nəticəsi hesab edilə bilər..

Qeyd edilən dövrdə istehlak qiymətləri indeksi əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,9 faiz, Bu isə əhalinin real gəlirlərinin inflyasiyanı bir neçə faizbənd üstələdiyini göstərir. Nəticədə həm əhalinin orta aylıq əməkhaqqı, həm də real gəlirləri inflyasiyanı üstələməklə onların sosial rifah vəziyyətinə müsbət təsir edib.

## 11,4 milyard manat investisiya qoyuluşu

Cari ilin yanvar-oktyabr aylarında ölkəmizdə sərmayə axıcılığı da dayanıqlı xarakter daşıyıb, əsas kapitala 14 milyard 830 milyon manat və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz çox investisiya yönəldilib. Son 1 ildə neft-qaz sektoruna investisiyalar azalsa da, qeyri-neft-qaz sektoruna kapital qoyuluşları isə 6 faizdən çox artıb. 10 ayda istifadə olunmuş investisiyanın 7 milyard 499 milyon manatı və yaxud 50,6 faizi məhsul istehsalı sahələrinə, 4 milyard 863 milyon manatı və yaxud 32,8 faizi xidmət sahələrinə, 2 milyard 466,9 milyon manatı və yaxud 16,6 faizi isə yaşayış evlərinin tikintisinə yönəldilib.

Əsas kapitala yönəldilmiş investisiyaların 11 milyard 486,5 milyon manatını və yaxud 77,5 faizini daxili investisiyalar təşkil edib, 11 milyard 493 milyon manatı və yaxud 77,5 faizini bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

## Qeyri-neft sektorunun ÜDM-də payı 80 faizə yaxınlaşır

Cari ilin 10 aylıq makroiqtisadi göstəriciləri onu təsdiqləyir ki, ölkə iqtisadiyyatının inkişafında ağırlıq mərkəzi tamamilə qeyri-neft sektorunun üzərinə transformasiya olunmaqdadır və hökumətin neft ÜDM-dən qeyri-neft ÜDM-ə keçid strategiyası özünü doğrultmaqdadır. Hökumətin yaxınmüddətli iqtisadi inkişaf ssenarilərinə əsasən, neft-qaz sektorunun tədricən daralacağı şəraitdə iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft gəlirləri olacaq. Ortamüddətli Xərclər Çərçivəsi sənədində və İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş proqnoz icmalına əsasən, 2026-cı ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in həcmi 92,2 milyard manat təşkil edəcək. Ortamüddətli dövr üçün makroiqtisadi proqnozlara görə, 2026-cı ilin sonuna ÜDM-in həcmi 134,1 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcmi 101,7 milyard manat təşkil edəcəyi, 2029-cu ildə isə ÜDM-in 161,8 milyard manata qədər, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcminin 129,5 milyard manata qədər artacağı gözlənilir. Ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,5 faiz, qeyri-neft-qaz ÜDM-nin 4,9 faiz olacağı fərz edilir.

Hökumətin nikbin makroiqtisadi ssenarisinə əsasən, ölkəmizin qarşıdakı 4 il ərzində iqtisadi inkişafının əsas drayverləri qeyri-neft sektoru üzrə yığım mənbələrinin təşviqi, "kölgə iqtisadiyyatı"nın səviyyəsinin azaldılması və müxtəlif sektorlarda çalışan fiziki şəxslərin gəlir vergisi üzrə verilmiş azadolmanın müddətinin 2025-ci ilin sonunda bitməsi və bunun sayəsində yeni fiskal gəlir kanalının yaranması, habelə iqtisadiyyatın özəl və dövlət sektorunda qeyri-rəsmi məşğulluğun qarşısının alınması və gəlirlərin leqallaşdırılması nəticəsində qeyri-neft yığım mənbələrinin genişlənməsi olacaq. 2029-cu ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payı daha da artaraq 80 faizə çatacaq, neft-qaz sektorunun payı isə 20 faizə bərabər olacaq.

**ELBRUS CƏFƏRLİ**

# Moskvanın "təkzib" manevri...

## Rusiya Ukraynadakı səfirliyimizə hücumu başqa "ünvanlara" istiqamətləndirməyə çalışır

Noyabrın 14-nə keçən gecə Rusiya silahlı qüvvələrinin Ukraynanın paytaxtı Kiyevə çoxkombinasiyalı hava hücumu nəticəsində Azərbaycanın Ukraynadakı səfirliyinin binasına ciddi ziyan dəyməsi qlobal mühitdə ciddi etirazla qarşılanmışdı. Xatırladaq ki, raketlərdən biri səfirliyin ərazisinə düşmüşdü və səfirliyimizin binası da daxil olmaqla divarlarına ciddi zərər dəymişdi. Xatırladaq ki, bu, artıq birinci hal deyil. Paytaxt Kiyevə hava hücumları nəticəsində Azərbaycanın Ukraynadakı səfirliyinin binası bir neçə dəfə ziyan görüb. Lakin sonuncu ziyan miqyasına görə daha böyük və ciddi olub.

Hadisə baş verəndən sonra noyabrın 14-də Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb. Kiyevə raket və dron hücumları nəticəsində "İsgəndər" tipli raketlərdən birinin səfirliyin ərazisinə düşməsi ilə bağlı kəskin etiraz bildirilib və səfirə müvafiq nota təqdim edilib. Beynəlxalq hüququn norma və prinsiplərinə zidd olan bu kimi raket hücumlarının əvvəllər də baş verdiyi xatırladılıb. Rusiya tərəfindən məsələ üzrə müvafiq araşdırma aparılması və ətraflı izahat verilməsi tələb edilib.

## Beynəlxalq aləm etiraz etdi...

Bu hücum bir çox xarici dövlətlər və təşkilatlar tərəfindən narahatlıqla qarşılanmışdı. Məsələn, Fransanın Avropa və Xarici İşlər Nazirliyinin bəyanatında Rusiya tərəfindən Ukraynaya endirilən, o cümlədən Azərbaycan səfirliyinə də ziyan vurulmasına səbəb olan raket və pilotsuz uçuş aparatları ilə hücumlar qətiyyətlə pislənilirdi. "Bu misilsiz miqyaslı hücumlar - təxminən 430 pilotsuz uçuş aparatı və 18 raket - yeni bir eskalasiya olmaqla yanaşı, Rusiyanın sülh naminə çalışmağa hazır olmadığını bir daha göstərir", - deyə bəyanatda vurğulanırdı.

Rumıniya Xarici İşlər Nazirliyi də "X" hesabında Azərbaycanla tam həmrəylik ifadə edərək Kiyevdə səfirliyin raket zərbəsinə məruz qalmasını "məsuliyyətsiz hərəkət" adlandırmış, bunu Vyana Konvensiyasının kobud şəkildə pozulması kimi qiymətləndirmişdi.

O cümlədən, Belçikanın xarici işlər naziri Maksim Prevo "X" sosial media hesabında Kiyevdəki Azərbaycan səfirliyinə endirilən zərbədən narahatlığını ifadə etmişdi. O vurğulamışdı ki, diplomatik missiyaya hücum qəbuledilməzdir və beynəlxalq sistemin prinsiplərinə ziddir. Onun sözlərinə görə, Belçika Azərbaycanın və səfirlik əməkdaşlarının yanındadır.

BMT-nin Baş katibi Antonio Quterreş də Azərbaycanın Ukraynadakı səfirliyinə edilən hücumu qınayıb. Bu barədə BMT-nin sözçüsü Stefan Dujarrik ənənəvi olaraq keçirdiyi mətbuat konfransında deyib. O, bildirib ki, BMT-nin Baş katibi Ukraynanın genişmiqyaslı raket və dron zəbələrinə tutulmasını və bunun nəticəsində Kiyevdə 6, Çernomorsk şəhərində isə 2 mülki şəxsin həlak olmasını qətiyyətlə pisləyir. S.Dujarrik nəzərə çatdırıb ki, raket hücumları zamanı çoxsaylı mülki obyektlərə, enerji infrastrukturuna və Azərbaycan Respublikasının səfirliyinə ciddi ziyan dəyib. Qeyd edib ki, mülki infrastrukturun və diplomatik nümayəndəliklərin atəşə tutulması beynəlxalq humanitar hüquqa ziddir və yolverilməzdir. Göründüyü kimi, baş verən hadisə qlobal dünya tərəfindən etirazla qarşılanıb. Diplomatik korpusların müdafiə olunması, onların təhlükəsizliyinin təmin edilməsi hətta müharibə dövründə belə mütləşq hal kimi önə çəkilir.



## Rusiya təkzib etməyə çalışır - fakt isə ortadadır...

Rusiya tərəfi isə maraq doğuran bir açıqlama ilə çıxış edib - belə ki, Moskva Belçikanın xarici işlər naziri Maksim Prevonun Azərbaycanın Kiyevdəki səfirliyinə dəyən ziyanın Rusiya ordusu tərəfindən vurulması ilə bağlı açıqlamasını təkzib edib. Bu barədə "Kommersant" nəşri yazıb. Mənbə qeyd edir ki, Rusiyanın Belçikadakı səfirliyi bu ittihamları "əsassız və tələsik verilmiş" adlandırıb. Rusiya səfirliyinin açıqlamasında iddia olunur ki, Azərbaycan səfirliyinə dəymiş ziyan ABŞ istehsalı olan "Patriot" hava hücumundan müdafiə sistemi tərəfindən buraxılan raketlərin qalıqları səbəbindən yarana bilər. Rusiya Xarici İşlər Nazirliyi də yayımladığı press-relizdə bildirib ki, Rusiya Silahlı Qüvvələri Ukrayna ərazisinə zərbələr planlaşdırarkən diplomatik missiyaların yerləşdiyi ünvanları nəzərə alır. Rusiya Müdafiə Nazirliyinin məlumatına görə, həmin gün endirilən zərbələr Ukraynanın müdafiə-sənaye kompleksinə və enerji infrastrukturu obyektlərinə yönəlib. Zərbələr zamanı "Kinjal" hipersəs raketləri və zərbə PUA-larının tətbiq edildiyi qeyd olunub.

Hər bir halda fakt ortadadır - məhz Rusiyanın hücumu zamanı Ukraynadakı Azərbaycan səfirliyi zərbə alıb - o cümlədən Azərbaycan öz etirazını Moskvaya da səfirlik vasitəsi ilə bildirib. Belə olan halda, Rusiyanın mövzunu yayındırmaq üçün fərqli məcralara yönləndirmək cəhdi uğursuzluq vəd edir...

**SADİQ**

# Rusiya yeni sanksiyaların hədəfində...

Avropa İttifaqının (Aİ) Rusiyaya qarşı yeni sanksiya paketi bir neçə həftəyə hazır olacaq. Bunu Almaniya kansleri Fridrix Merz Berlində mətbuat konfransında deyib. Onun sözlərinə görə, yeni paket əsasən sanksiyalardan yayınmaların qarşısının alınmasına yönələcək. "Biz sanksiyalardan yayınmaya şərait yaradılmasını pisləyirik, bu boşluqların aradan qaldırılmasını və ya hər halda azaldılmasını təmin etmək istəyirik. Yaxın həftələrdə Avropa İttifaqında yeni sanksiyalar paketi hazırlayacağıq. Bir boşluğu digərinin ardınca bağlamağa çalışacağıq", - deyə Almaniya kansleri vurğulayıb.

## Ukraynanın müqavimət gücünün artırılması

Şimal qonşumuza qarşı sanksiyalar uzanan Rusiya-Ukrayna müharibəsi səbəbindən tətbiq edilir. Avropa İttifaqı bu müharibədə Ukraynanın mövqeyini müdafiə edir. Müharibənin əvvəlində Moskvaya qarşı Amerika Birləşmiş Ştatlarının başçılığı ilə kollektiv Qərb cəbhəsi formalaşmışdı. Buradan Kiyevə hərtərəfli yardımlar edilir, o cümlədən hərbi texnika, sursat tədarükü həyata keçirilirdi. Eyni zamanda, Ukraynanın daxili gəlirlərdən böyük dərəcədə məhrum qalan dövlət büdcəsi də ABŞ-ın və Aİ-nin ayırdığı vəsaitlər hesabına davamlı şəkildə dəstəklənirdi.

Cari ilin yanvarında Vaşinqtonda administrasiya dəyişikliyindən sonra isə fərqli mənzərə yaranıb. Yeni Prezident Donald Tramp Ukraynanın dəstəklənməsinin əslində Avropa İttifaqının məsuliyyəti olduğunu bildirir. Beləliklə də, Ukraynaya dəstəyin fərqli strukturu formalaşıb. Yeni administrasiya Ukraynaya silah tədarükündən imtina etmir. Lakin Vaşinqton bunu yeni qaydalar çərçivəsində edir. Belə ki, silahlar Avropa İttifaqına satılır və yalnız bundan sonra Ukraynaya tədarük olunur. Silahların tədarükündə məqsəd Ukraynanın müqavimət gücünü artırmaqdır.

Müharibənin əvvəlindən bəri şimal qonşumuza qarşı Aİ tərəfindən 19 sanksiya paketi təsdiqlənib. Bundan əvvəlki 19-cu sanksiyalar paketində yer alan mühüm məsələlər sırasına 2027-ci ilin yanvarından etibarən Rusiya maye qazının Aİ-yə idxalına qadağa, həmçinin kriptovalyuta və banklara qarşı tədbirlər daxildir. Avropanın əsas hədəfi Kremlin istənilən gəlir mənbəyini sanksiyalara məruz qoymaqdır. Qərb sanksiyaların Rusiyanın dövlət maliyyəsinə və iqtisadi artımına əhəmiyyətli təsir göstərdiyini bildirir. Bu paket Rusiyanın silah istehsalı üçün lazım olan texnologiyalara və kritik resurslara çıxışını da məhdudlaşdırmağa hesablanıb. Paketdə bir çox yeni məhdudiyyətlər yer alıb. Bunların arasında Rusiyanın iri neft şirkətlərinə və onların treyderlərinə qarşı sanksiyalar, üçüncü ölkə şirkətlərinə ikinci dərəcəli sanksiyaların genişləndirilməsi, qiymət hədləri və çatdırılma üzərində nəzarət, banklara və enerji şirkətlərinə qarşı yeni məhdudiyyətlər, kriptovalyutalara nəzarətin gücləndirilməsi, idxal qadağalarının və tariflərinin genişləndirilməsi, Rusiya neft və qazını alan ölkələr üçün mümkün məhdudiyyətlər və bu kimi bir çox məsələlər yer alır. Bundan başqa, Avropa texnologiyaları, o cümlədən Rusiya müdafiə sənayesi üçün komponentlər üzrə ixrac nəzarətinin gücləndirilməsi, lisenziyalaşdırılmalı olan ikili təyinatlı malların siyahısının genişləndirilməsi, sanksiyaların icrasına nəzarət üçün ümumavropa mexanizminin yaradılması və pozuntular haqqında daha sıx məlumat mübadiləsi də bəhs olunan paketə daxil edilib.




## Yeni sanksiyalar paketinin anonsu

Sayca 19-cu sanksiyalar paketinin təsdiqi ilə paralel şəkildə 20-ci sanksiyalar paketinin də anonsu verilib. Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas bildirib ki, Aİ ölkələri Rusiyaya iqtisadi təzyiqi davam etdirmək məqsədilə ölkəyə qarşı artıq 20-ci sanksiya paketinin tətbiqi ideyasını dəstəkləyib.

Onun sözlərinə görə, Aİ Rusiyaya iqtisadi təzyiqi gücləndirmək və Ukraynaya maliyyə və enerji yardımının təqdim edilməsini sürətləndirmək niyyətindədir. "Rusiyanın əlindən aldığımız hər avro onun müharibəyə xərcləyə bilməyəcəyi avrodur", - deyə o vurğulayıb və əlavə edib ki, üzv dövlətlər artıq 20-ci sanksiya paketi ideyasını dəstəkləyib, bu, növbəti addım olacaq. Ali nümayəndə həmçinin bildirib ki, nazirlər ABŞ Prezidenti Donald Trampın müvafiq çağırışını dəstəkləyərək Rusiyadan neft və qaz alışını dayandırmağa razılıq veriblər.

## Dondurulmuş Rusiya aktivlərindən istifadə gündəmdə

Dondurulmuş Rusiya aktivlərindən əldə olunan gəlirlərin Ukraynanın yenidən qurulmasını dəstəkləmək üçün istifadə edilməsi də gündəmdə olan məsələlər sırasındadır. Kallas təsdiq edib ki, Aİ Ukraynanın təcili müdafiə ehtiyaclarının qarşılanması üçün Rusiyanın dondurulmuş aktivlərini səfərbər etməyə hazırlaşır. Aİ Rusiya Mərkəzi Bankının dondurulmuş aktivlərindən müsadirə yolu ilə deyil, Ukraynaya 140 milyard avroya qədər faizsiz kreditlər mənbəyi kimi istifadə edilmək planını açıqlayıb. Bundan əlavə, Aİ Rusiyanın yeni hücumlarına məruz qalan Ukraynanın enerji infrastrukturunun müdafiəsi üçün əlavə tədbirlər təklif etmək niyyətindədir. İttifaq Ukraynaya qaz tədarükünü artırmağı və zədələnmiş obyektlərin təmirinə kömək etməyi planlaşdırır.

ABŞ bu məsələdə fərqli yanaşma sərgiləyir. Donalq Tramp bir qədər bundan əvvəl dondurlmuş Rusiya aktivləri ilə bağlı müzakirələrə qatılmadığını bəyan etmişdi. Bu günlərdə isə Ağ Evdən fərqli açıqlama gəlib. Verilən məluumata görə, 2026-2028-ci illər ərzində ABŞ hökuməti dondurulmuş Rusiya aktivlərindən 2,5 milyard dolları müsadirə edə bilər. Hazırda federal hökumətin bu qərarı verməsi ehtimalı 50 faiz olaraq qiymətləndirilir.

*Mübariz FEYİZLİ*

# Yaponiya Çinə diplomat göndərir

## Vəziyyəti stabilləşdirmək üçün...

Çin ilə Yaponiya arasındakı gərginlik səngiyir. Qeyd edək ki, Baş nazir Sanae Takaiçinin Tayvanla bağlı açıqlamalarından və Pekinin sərt reaksiyasından sonra iki ölkə arasında yaranan münaqişənin həlli üçün Yaponiya Çinə yüksək səviyyəli diplomat göndərmək qərarına gəlib. Bu barədə "Kyodo" agentliyi məlumat yayıb. Məlumatda Yaponiya Xarici İşlər Nazirliyinin Asiya və Okeaniya Departamentinin rəhbəri Masaaki Kanainin noyabrın 18-də Çin tərəfi ilə cari vəziyyətlə bağlı danışıqlar aparacağı bildirilib.

## Pekin mövqeyində qətiyyətlidir

Təxminən bir həftə davam edən gərginlik fonunda hər iki dövlət bəzi addımlar atmışdı. Ötən cümə günü Çin Xarici İşlər Nazirliyi Yaponiyanın Pekindəki səfirini çağıraraq ona xəbərdarlıq etmişdi - rəsmi Pekin Yaponiyanın Baş naziri Sanae Takaiçinin Tayvanla bağlı açıqlamalarını "qəbuledilməz" elan etmişdi. Çin Müdafiə Nazirliyi isə bəyan etmişdi ki, əgər Yaponiya Tayvan ətrafındakı vəziyyətə güc tətbiq etməklə müdaxilə cəhdi göstərərsə, "sarsıdıcı məğlubiyyət" ilə üzləşəcək. Vurğulayaq ki, rəsmi Pekindən səslənən açıqlamalar boşuna deyildi - Sanae Takaiçi Tayvana mümkün Çin hücumunun "mövcudluq təhdidi" hesab ediləbiləcəyini və Tokionun özünümüdafiə hüququndan istifadə edə bilmə imkanları barədə son açıqlaması gərginliyin əsas səbəbi idi. Çin Müdafiə Nazirliyinin sözçüsü Tsyan Bin baş nazir Takaiçinin açıqlamalarını son dərəcə məsuliyyətsiz və təhlükəli adlandırmışdı. "Əgər Yaponiya tərəfi tarixdən dərs çıxarmazsa və Tayvan məsələsinə müdaxilə etmək üçün risk etməyə və ya hətta güc tətbiq etməyə cəsarət edərsə, Xalq Azadlıq Ordusunun dəmir iradəsi əlində sarsıdıcı məğlubiyyətə uğrayacaq və bunun üçün ağır bədəl ödəyəcək", - deyə Tsyan Bin açıqlamasında bildirib.

## 27 ildən sonra bağlanan sülh...

Xatırladaq ki, iki ölkə arasında tarixdə zaman-zaman qarşıdurmalar yaşanıb. 1945-ci ilin avqustunda təslim olan Yaponiya Potsdam Bəyannaməsinin şərtlərini qəbul etdi. Çin ilə Yaponiya arasında diplomatik münasibətlər isə kapitulyasiyadan iyirmi yeddi il sonraya təsadüf etdi. 1972-ci ildə imzalanan birgə kommünikedə Tokio Pekin və Tayvandakı yeganə qanuni Çin hökumətini və Tayvanı Çin Xalq Respublikasının ayrılmaz hissəsi kimi tanıdı - 12 avqust 1978-ci ildə isə iki ölkənin xarici işlər nazirləri Pekində Sülh və Dostluq Müqaviləsini imzaladılar və bu Müqavilə həmin ilin 23 oktyabrında qüvvəyə mindi. Çin-Yaponiya Sülh və Dostluq Müqaviləsi ikitərəfli əməkdaşlıq üçün siyasi və hüquqi təməl yaratdı. Bu, Pekin və Tokionun mübahisələri sülh yolu ilə həll etmək öhdəliyini bir daha təsdiqləyir.



## Yaponiyalı diplomat çalışacaq ki...

Reuters agentliyinin məlumatına görə, Yaponiya Xarici İşlər Nazirliyinin Asiya və Okeaniya Bürosunun baş direktoru Masaaki Kanainin Çinə səfəri çəçivəsində Lyu Tsinsunt ilə görüşü planlaşdırılır. Görüşdə yaponiyalı nümayəndə Takaiçinin şərhinin təhlükəsizlik siyasətində dəyişiklik demək olmadığını bildirmək və Çini ikitərəfli münasibətləri pisləşdirə biləcək addımlardan çəkinməyə çağırmaq niyyətindədir.

*SADİQ*

# Tikanı özünə batan gül

## Uilyam Folknerin "Emili üçün qızılgül" hekayəsi haqqında

**əvvəli ötən saylarımızda**

"Heç bir insan havadan asılı vəziyyətdə mövcud deyil - hər kəs keçmişinə söykənir, hamı öz keçmişinin, həm də gələcəyinin məhsuludur. Cənubla şimal arasındakı mübarizə, heç şübhəsiz, mənim bunu nə qədər dərk etməyimdən asılı olmayaraq mənəvi irsimin, qazandığım təcrübənin mühüm bir hissəsini təşkil eləyir. Yazıçı içində olduğu mühitdən, adamlardan danışır, bunlar barədə bildiklərini söyləyir. Əgər kişinin şimalı, onu öldürən qadınınsa cənubu təmsil etməsi barədə simvolika varsa, mən burada belə yanaşma və rəmzlərin olmadığını deyə bilmərəm. Amma bu, müəllifin bilə-bilə göstərdiyi şüurlu bir cəhd deyil. Yazıçı öz qarşısına belə bir məqsəd qoymur ki, bax, mən indi xarakterlərdən birinin şimalı, o birininsə cənubu təmsil edəcəyi bir hekayə yazmaq niyyətindəyəm. Buradakı münaqişə daha çox şimalla cənub arasında yox, bəlkə də Allahla Şeytan arasında gedən bir münaqişədir. Münaqişənin kökü isə miss Emilinin özündədir: o bilir ki, öldürmək olmaz; o belə tərbiyənin yiyəsidir ki, oynaş saxlamaq yolverilməzdir; oynaş saxlamaq yox, ərə getmək lazımdır. O öz mühitinin bütün adətlərini, qanunlarını, son nəticədə isə bəndəni öldürməyi qadağan eləyən Allahın buyurduğu qanunu pozub. Emili şər iş tutduğunu bilir və öz şəxsi həyatını məhv edir. Amma başqa cür olması da mümkün idi: qadın oynaşını öldürüb təzəsini tapar, istifadə eləyəndən sonra onu da öldürə bilərdi. Əvəzində miss Emili günahını yumaq yolunu seçir..."

Deyilənlərə bircə bunu artırmaq istərdim ki, yazıçı, əlbəttə, obrazlarını hansısa coğrafi-bioloji-antropoloji, dini-milli-kulturoloji, ictimai-siyasi-psixoloji mentallıqların simvolu, sosial konstrukt kimi yaradıb, ideyaların içinə bolluca həyat havası da üfürə bilər - bu tipli böyük əsərlər ədəbiyyat tarixində boldur. Ancaq bu məsələdə çox diqqətli olmalısan ki, sosial fonu sosial problematikadan ayıra biləsən. Stendalın, Balzakın, Dikkensin, Hüqonun, Qonçarovun, Turgenevin, Dostoyevskinin, Tolstoyun, Zolyanın, Mopassanın, Çexovun, Kafkanın, Tomas Mannın... əsərlərinə, elə həmin Folknerin "Ayı" povestinə münasibətdə biz bu cür vulqar-sosioloji yanaşmanın çox şahidi olmuşuq. Məsələn, Tomas Mannın "Buddenbroklar" romanıyla "Sehirli dağ" romanını, yaxud İsa Hüseynovun "Teleqram" əsəriylə "Məhşər" əsərini eyni arşınla ölçüb eyni tərəzidə çəkə bilməzsən. Əyarlar, meyarlar başqadır. Sosial ədəbiyyatın öz arşını, psixoloji ədəbiyyatın öz meyarı, fəlsəfi ədəbiyyatın da öz tərəzisi var. Meyarlar dəyişik düşəndə ortaya yanlış nəticələr çıxır.

***

Miss Emilinin faciəsi də ilk növbədə sosial-psixoloji yox, məhz fərdi-psixoloji xarakter daşıyır. Hekayədə nə qədər qabarıq görünsə də, ictimai münasibətlər burada yalnız dekorasiya, fon rolunu oynayır, problematikanın özü isə sosial yox, məhz psixoloji qaynaqlardan qidalanır. Ona qalsa, Yevgeniya Qrandeylə Emili Qrirsonun zamanı da, məkanı da, mühiti, mənşəyi, sosial statusu, mentaliteti də bir-birindən nə qədər uzaq, nə qədər fərqlidir! Ancaq talelər necə də bir-birinə bənzəyir! Eynən Yevgeniya kimi Emilinin də faciəsi atası hətta öləndən sonra belə onun əsarətindən çıxa bilməməyində, həyatda bir fərd kimi, müstəqillik bir yana, azacıq muxtariyyət də qazanmamağındadır.

Yevgeniya kimi Emili də rahibədir - atasının rahibəsi; ata obrazı ondan ötrü də Allah obrazıyla eyniləşib, hətta tabutunun başında da atasının şəkli durur, tabutda uzananda belə ata nəzəri onun üstündən çəkilmir. Atasının sağlığında qəsrə, qalaya bənzəyən zəhmli evləri atası öləndən sonra qaranlıq, tozlu monastıra, günah məbədinə çevrilir. Deyən-gülən, yeyən-içən şimallı donjuan belə bir asketik mühitdə bənd ala bilməz. Klassik Şərq ədəbiyyatından tanıdığımız rindü-zahid qarşıdurması burada tamam başqa tarixi kontekstdə, fərqli mental mühitdə, təzə libasda özünü yenidən xatırladır.

Bir yandan da miss Emili cəsədini torpağa qaytarmaq istəmədiyi atasından sonra başsız, kompassız qalmış həyatını təkbaşına çəkib apara bilmir, insan cəngəlliyində azıb səmtini itirmək qorxusuyla yaşayır. Öz şəhərindən özünə həmdəm seçməyə qüruru yol vermir, həqarətlə baxdığı insanların gözündə xarizmasını zədələməkdən qorxur, bu səbəbdən onun keçmiş-keçənindən xəbərsiz yad oğlunun qarşısına ağ varaq kimi sərilib həyatına yeni səhifədən davam eləmək istəyir. Homer Berron Qrirsonların məbədində ata bütünün boş qalmış yerini doldurmalıdır, hətta onun əlində şəstlə tutduğu qamçı da əzazil ataya məxsus o qəzəbli qırmancın varisidir.

Fəqət şimaldan gəlmiş həyat ovçusu qənimət axtarmaqdaykən özü qənimətə çevrilir - cütləşmə zamanı dişi hörümçəyin tora salıb yediyi, zövqü-səfa dəmində aqibətindən xəbərsiz erkək hörümçək kimi; yaxud da gücünün yetmədiyi iri balığa caynaq batırıb öz ovunun yedəyində suya qərq olan alıcı quş kimi. Emili yankini öldürməklə onun bütün varlığını mənimsəyib özününküləşdirmək, ona tapınmaq istəyir, nəticədə qıza arzuladığı varlığın yalnız yoxluğu qalır - bir qalaq toz, bir qucaq da sür-sümük o yoxluğun simvoludur.

Həmin simvollara biz sonralar özünü Folknerin şagirdlərindən sayan Markesin yaradıcılığında da rast gələcəyik - ərini öldürəndən sonra evindən çölə çıxmayan Rebekanın hörümçək toruyla suvanmış tozlu otağında, anasını torpağa gömməyib sümüklərini yatağının yanında saxlayan patriarxın qanlı sarayında...

Burada qəribə heç nə yoxdur - ədəbiyyat bildiklərimizi xatırlamaq, xatırlatmaq sənətidir. Yaxın illərdə iki yüz yaşlı Yevgeniyanın, yüz yaşlı Emilinin bir kiçik bacısı da dünyaya gəlsə, buna heyrətlənmək yox, yalnız sevinmək olar. Necə deyərlər, söz vaxtına çəkər, dünya şöhrətli bu talesiz qızların iki sıfırlı yubileyinə daha bir şey qalmayıb. Zaman ayrı zaman olsa da, insan yenə həmin insandır - həmin sevgi, həmin qorxu, həmin ehtiras.



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Mədəniyyətləri birləşdirən dəyər



## İslam incəsənətinin zənginliyi...

Hər bir mədəniyyət özünü incəsənətdə tanıdır. Hər bir sivilizasiya isə özünün daxili aləmini insanlığın ortaq yaddaşına məhz sənətlə həkk edir. İslam sivilizasiyasının yaratdığı incəsənət isə minilliklər boyu yalnız məkanları deyil, həm də qəlbləri işıqlandıran, həm gözə, həm də düşüncəyə xitab edən nadir bir mədəni mirasdır.

Mütəxəssislərin proqnozlarına əsasən, 2070-ci ildə İslam xristianlığı ötərək dünyanın ən geniş yayılmış dini olacaq. Müxtəlif zamanlarda digər dinlərin nümayəndələri dinimizi terrorçuluq hadisələri ilə əlaqələndirərək ləkələməyə çalışıblar. Halbuki İslam dini insanlara, heyvanlara və bütün digər canlılara qarşı heç bir zorakılığı əsla qəbul etmir. Dinimiz elm öyrənməyi daim dəstəkləyir. İslam incəsənəti adlanan bir sahənin olması belə dinimizin incəliklərindən xəbər verir.

İslam incəsənəti anlayışı ilk yarandığı vaxtlarda bəzi Avropa incəsənət tarixçiləri bu sahəyə istehza ilə yanaşırdılar. Lakin “İslam incəsənəti” tarixin bütün sınaqlarından çıxa bildi və hazırda bütün sahələri xeyli inkişaf edərək məşhurlaşıb.

2019-cu ildən etibarən hər il 18 noyabr tarixi Beynəlxalq İslam İncəsənəti Günü olaraq qeyd olunur. Bu gün vasitəsilə dinimizin incəsənət sahələrinin incəlikləri, digər mədəniyyətlərə verdiyi töhfələr haqqında bütün dünya məlumatlanır.

## İslam incəsənətinin sahələri

Xəttatlıq - Quran ayələri binaların divarlarında, sütunlarda əşyalar üzərində xüsusi üsulla yazılır. Buna bəzən “Quran sənəti” də deyirlər. İbadət üçün getdiyiniz məscidlərdə fikir vermiş olarsınız, çoxusunun divarlarında Quran ayələri həkk olunub. Və ya tarixi abidələrimizə diqqət yetirsək, əksəriyyətində daş üzərində Quran ayələrinin oyulduğunu görə bilərik.

Səmavi rəqslər - bu sahədən demək olar ki, hər birimiz xəbərdarıq. Xüsusi ağ geyimlə musiqi sədaları altında rəqs edən “səmazən”lər... Bu rəqslər insanın ruhunu dincəldir. Etik qaydalara əsasən, səmavi rəqslər zamanı sakitliyə mütləq riayət etmək lazımdır.

Rəssamlıq - belə düşünənlər var ki, insan və heyvan şəkillərinin çəkilməsi günahdır. Əgər bu Allaha şərik qoşmaq üçün edilirsə, təbii ki, günah olacaq. Lakin məqsəd sadəcə sənətlə məşğul olmaq və bir-birindən gözəl əsərlər yaratmaqdırsa, bunu günah saya bilmərik. Texnologiyanın olmadığı dövrlərdə çəkilən rəsmlər, portretlər bizə tarixi şəxsiyyətlərin simalarından, tarixi hadisələrdən xəbər verir. Bəzən bir rəsm əsərinə baxan zaman zövqümüz oxşanır və ruhumuzun dincəldiyini hiss edirik.

Xalçaçılıq - həndəsi fiqurları, naxışları, insan və ya heyvan fiqurlarını əks etdirən şərq xalçalarında rənglərin ahəngi insanı valeh edir. Bütün dünyada məşhurlaşan şərq xalçaları evlərin divarlarını, döşəmələrini bəzəyir.

Memarlıq - məscidlər, binalar, sütunlar üzərində xüsusi bəzəklərlə əks olunan oyuqlar, göz qamaşdıran naxışlar tikililərin həm xaricinə, həm də daxilinə fərqlilik qatır. Növbəti gedişinizdə məscidlərin günbəzlərinin içəridən mozaika sənəti ilə necə möhtəşəm göründüyünə diqqət yetirin.

Dulusçuluq - keramik qablar üzərində heyvan və ya insan təsvirləri, naxışlar, həndəsi fiqurlar xüsusi ustalıqla nəqş olunur və s.

## Azərbaycan və İslam incəsənəti

Azərbaycan tarixən İslam incəsənətinin parlaq mərkəzlərindən biri olub. Şirvanşahlar sarayının daş oymaları, Naxçıvan memarlıq məktəbinin möhtəşəm türbələri, Qarabağ xalçaçılığının incə naxışları, miniatür sənətinin zərifliyi - bütün bunlar yalnız regional deyil, İslam incəsənətinin ümumi xəzinəsinə daxil olan nadir nümunələridir. Bu torpaqda sənət həm inancın, həm də zəngin mədəni ənənənin güzgüsü olub.



## Müasir dünyada İslam incəsənətinin rolu

Texnologiyalar əsrində belə İslam incəsənəti öz dəyərini itirmir, əksinə, yeni nəfəs, yeni forma qazanır. Müasir memarlıqda İslam ornamentlərinin tətbiqi, rəqəmsal kalliqrafiya, NFT sənətində İslam motivləri - bütün bunlar incəsənətin zamanla necə dəyişdiyini, lakin öz ruhunu qoruduğunu göstərir. İslam incəsənəti müasir dünyada mədəni müxtəlifliyi zənginləşdirir, estetik zövqü inkişaf etdirir, tolerantlıq və qarşılıqlı anlaşma mesajı verir.

## Beynəlxalq günün əhəmiyyəti

Bu günün təsis olunması dünyaya bir mesajdır: İslam incəsənəti yalnız müsəlmanların deyil, bütün bəşəriyyətin mədəni sərvətidir. O, çərçivələri aşan, qlobal mədəni dialoqa töhfə verən ümumbəşəri bir dildir.

*Yeganə BAYRAMOVA*



# Xatirəyə çevrilən melodiyalar

## Emin Sabitoğlu duyğulara nəfəs verən bəstəkar idi...

*Yeganə BAYRAMOVA*

Azərbaycan musiqi mədəniyyətinin parlaq simalarından biri olan Emin Sabitoğlu ömrünü musiqiyə, melodiyanın insan qəlbinə yol tapan işığına həsr etmiş sənətkarlardandır. Onun bəstəkarı olduğu mahnılar bütöv bir nəslin hisslərini ifadə edib, həm də gələcək nəsillərə duyğu, sevgi və düşüncə mirası kimi qalıb. Sabitoğlunun musiqisi xalqın gündəlik həyatından doğan, səmimi duyğuların sözə çevrilmədən birbaşa melodiyada danışdığı bir ünsiyyət formasıdır. O melodiyalar ki, insan ürəyinin ən dərin qatlarına toxunur, bəzən nəğmə kimi, bəzən düşüncə kimi, bəzən də xatirə kimi yaşayır.

Bir payız axşamı görkəmli dramaturq Sabit Rəhmanın ailəsində dünyaya göz açan Emin sonralar məşhur mahnılarından birində söylədiyi kimi, “haradan gəlib hayana gedəcəyini” çox gözəl bilirdi. Belə olmasaydı, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdindəki orta musiqi məktəbində (indiki Bülbül adına məktəbdə) təhsil almazdı, 1954-cü ildə Konservatoriyada, Qara Qarayevin sinfinə daxil olmazdı, 1957-1961-ci illərdə təhsilini P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında davam etdirməzdi.

Sonralar o, “Azərbaycanfilm” kinostudiyasında musiqi redaktoru vəzifəsində çalışıb. Sonrakı illərdə Dövlət Filarmoniyasında bədii rəhbər, Ü.Hacıbəyli adına Dövlət Konservatoriyasında (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) müəllim işləyib.

Ötən yüzillikdə Azərbaycan musiqisi tarixində layiqli iz qoyub getmiş Emin Sabit oğlu Mahmudov milli bəstəkarlıq məktəbinin layiqli nümayəndələrindən biridir. Xalq artisti, Dövlət mükafatı laureatı, “Şöhrət” ordenli bəstəkarın kino və tamaşalarda səslənən musiqiləri dillər əzbəridir, ayrı-ayrı müğənnilərin repertuarında geniş yer tutur. Onun filmlərə yazdığı musiqilər yüksək mədəniyyət, zəngin dünyagörüşü və yaradıcı intellektin məhsuludur. Elə bunun nəticəsində də bədii əsərlərin təcəssümü olan zamanın ruhunu çox dəqiqliklə hiss etdirir, hadisələrin məğzini açır. Emin Sabitoğlu musiqisi emosional ekran poeziyası kimi baxımlıdır. Bəstəkarın kino musiqisi tamaşaçını filmlərdəki hadisələrə daha çox ürəkdən təmas etməyə, daxilən obrazlarla ünsiyyət qurmağa təkan verir, hətta film bitdikdən sonra da tamaşaçını özünün emosional təsirində saxlayır. Bəstəkar tanınmış rejissorlardan - Həsən Seyidbəyli, Şamil Mahmudbəyov, Arif Babayev, Tofiq Tağızadə, Rasim Ocaqov və Vaqif Mustafayevlə əməkdaşlıq edib, onların çəkdikləri filmlərə yaddaqalan musiqi bəstələyib.

Musiqinin müxtəlif janrlarında bir çox dəyərli əsərlərin müəllifi olan Emin Sabitoğlu bir simfoniya, üç simfonik poema, üç kantata, simli kvartet, skripka və fortepiano üçün poema yazıb. Lakin bir neçə musiqi janrı onun yaradıcılığının əsasını, müəyyənedici hissəsini təşkil edirdi.

O, 600-dən artıq mahnı, doqquz musiqili komediya, 40-a yaxın filmə musiqi bəstələyib. “Dərələr”, “Bakı, sabahın xeyir”, “Uzaq yaşıl ada”, “Dağlar”, “İnsaf da yaxşı şeydir” mahnıları çoxsaylı əsərlərindən bəziləridir.

Tamaşalara yazdığı musiqilər isə o qədər çoxdur ki, sayını heç bəstəkarın özü də bilmirdi. Paytaxt teatrları ilə yanaşı, Sumqayıt, Gəncə, Lənkəran, Mingəçevir, Naxçıvan teatrlarının tamaşalarına musiqi bəstələyib.

Zaman hər şeyi dəyişir, amma Sabitoğlu melodiyaları dəyişmir. Onlar elə yazılıb ki, hər dövrdə gəncləşir, hər nəsildə yenidən doğulur. Bu, onun sənətə və xalqa olan sevgisinin möcüzəsidir.

Bu gün görkəmli bəstəkarın vəfatından 25 il ötür. O, 2000-ci il noyabrın 18-də Bakıda vəfat edib. 5 avqust 2017-ci ildə Prezident İlham Əliyev Emin Sabitoğlunun 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. 2022-ci ildə bəstəkarın 85 illik yubileyi Vyanada qeyd olunub.

# “Nar” şagirdlər arasında oxu mədəniyyətini təşviq edir




Sərfəli xidmətləri və regionlara diqqəti ilə seçilən mobil operator “Nar” bu dəfə Azərbaycanın cənub bölgəsində sosial məsuliyyət layihəsi həyata keçirdi. Belə ki, “Nar”ın dəstəyi ilə Salyan rayonunun İsfəndiyar Həsənov adına Sarvan kənd tam orta məktəbində “Kitab dostu” guşəsi yaradılıb.

“Nar” “Kitab dostu” guşəsinə şagirdlərin mütaliə bacarıqlarını inkişaf etdirəcək 100-dən çox kitab hədiyyə edib. Seçilmiş kitablar məktəblilərin həm təhsil uğurları, həm də şəxsi inkişafları üçün xüsusi əhəmiyyət daşıyır.

Qeyd edək ki, “Kitab dostu” guşəsini ziyarət etmək məqsədilə mobil operatorun nümayəndələri Sarvan kənd məktəbinin qonağı olublar, məktəbin müəllim heyətinin təşkil etdiyi tədbirdə iştirak edərək istedadlı şagirlərin ifasında vətənpərvərlik mövzusunda tamaşalar izləyiblər.

Bu təşəbbüs “Nar”ın Salyan şəhərində yeni mağazasının açılışı ilə yanaşı həyata keçirilib və şirkətin hər bir regional genişlənməni faydalı sosial layihələrlə müşayiət etmək ənənəsinin növbəti örnəyidir.




Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən “Nar” son 6 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında “Nar”ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSim texnologiyası təqdim edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4983**
**Sifariş: 2329**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova